# English

***Listen to the passage and answer questions 1 – 6.***

Oprah Winfrey is a famous American talk show host, actress, philanthropist and businesswoman. Oprah's journey from struggles to success is an inspiration to many. She represents how hard work and determination can take you to the highest point. Oprah was born in 1954 in Mississippi to a single teenage mother. She had a difficult childhood, facing poverty and abuse. Despite her struggles, Oprah was a bright student. When she was 17, she earned a full scholarship to Tennessee State University.

She is best known for her talk show, the Oprah Winfrey Show. The show ran for 25 years and was the highest-rated talk show in the USA. During her show, Oprah interviewed some of the biggest celebrities, politicians, and public figures in the world. She also covered important topics such as discrimination, poverty, and violence.

She has been listed as one of the most influential people in the world by Time magazine. Oprah has also established the Oprah Winfrey Leadership Academy for Girls in South Africa, providing young women with education and resources.

**A variantı 1 saylı test tapşırığı**
**B variantı 3 saylı test tapşırığı**
**C variantı 3 saylı test tapşırığı**
**D variantı 1 saylı test tapşırığı**

The passage is mainly about ... .
A) important topics listed by Time magazine
B) the most famous public figures in the USA
C) a successful American TV talk show host
D) Oprah Winfrey's difficult childhood years
E) providing young women with education

**Alt-standart:** 7-1.1.2. Dinlədiyi mətndəki əsas fikri müəyyən edir.
**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir və mətndə əsasən nədən bəhs olunduğu soruşulur. Burada verilmiş* ***"important topics listed by Time magazine", "the most famous public figures in the USA", "Oprah Winfrey's difficult childhood years"*** *və* ***"providing young women with education"*** *fikirləri barədə mətndə məlumat verilsə də, mətn əsas etibarilə* ***"uğurlu amerikan televiziya verilişi aparıcısı"*** *haqqındadır. Bu səbəbdən də, test tapşırığının* ***doğru cavabı "a successful American TV talk show host"*** *olan bənddir.*

**A variantı 2 saylı test tapşırığı**
**B variantı 2 saylı test tapşırığı**
**C variantı 1 saylı test tapşırığı**
**D variantı 3 saylı test tapşırığı**

Which statement is true according to the passage?
A) Oprah's show was the highest-rated talk show in the world.
B) Oprah's talk show ran for 25 months.
C) Oprah's journey from struggles to success is an inspiration to many.
D) Oprah had a brilliant childhood despite facing abuse.
E) Oprah was born in 1954 in South Africa.

**Alt-standart:** 10-1.1.2. Dinlədiyi mətndəki fakt və hadisələri qruplaşdırır, ümumiləşdirmələr aparır.
**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir və mətnə əsasən düzgün fikri seçmək tələb olunur. Verilən fikirlərdən* ***"Oprah's show was the highest-rated talk show in the world."*** *doğru deyil, çünki Opranın verilişi dünya üzrə ən yüksək qiymətləndirilən veriliş deyil, ABŞ-də ən yüksək qiymətləndirilən verilişdir;* ***"Oprah's talk show ran for 25 months."*** *doğru deyil, çünki Opranın verilişi 25 ay yox, 25 il davam etmişdir.* ***"Oprah had a brilliant childhood despite facing abuse."*** *fikri də doğru deyildir, çünki Opra yoxsulluq və təhqirlə üzləşərək çətin uşaqlıq keçirib;* ***"Oprah was born in 1954 in South Africa."*** *fikri də doğru deyil, çünki Opra 1954-cü ildə Cənubi Afrikada yox, Misisippidə doğulmuşdur.* ***"Oprah's journey from struggles to success is an inspiration to many."*** *fikri isə* ***doğru cavabdır,*** *çünki mətnə əsasən Opranın mübarizədən uğura gedən yolu bir çoxlarına ilham verir.*

**A variantı 3 saylı test tapşırığı**
**B variantı 1 saylı test tapşırığı**
**C variantı 2 saylı test tapşırığı**
**D variantı 2 saylı test tapşırığı**

Complete the sentence according to the passage.
*Oprah Winfrey ... .*
1. has established the Leadership Academy for celebrities and politicians
2. earned a full scholarship to Tennessee State University
3. has been listed as one of the most influential people in the world
4. is best known for her roles in a number of movies

A) 2, 4 B) 1, 4 C) 1, 3 D) 3, 4 E) 2, 3

**Alt-standart:** 10-1.1.2. Dinlədiyi mətndəki fakt və hadisələri qruplaşdırır, ümumiləşdirmələr aparır.
**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Mətnə əsasən cümləni düzgün tamamlamaq tələb olunur. Verilmiş yarımçıq cümlə mətndə* ***"When she was 17, she earned a full scholarship to Tennessee State University."*** *(O 17 yaşında olanda, Tenessi Dövlət Universitetinə tam təqaüd qazanmışdı.) və* ***"She has been listed as one of the most influential people in the world by Time magazine."*** *(O, Taym jurnalı tərəfindən dünyada ən nüfuzlu insanlardan biri kimi siyahıda verilmişdir.) kimi əks olunduğu üçün* ***"has established the Leadership Academy for celebrities and politicians"*** *(məşhurlar və siyasətçilər üçün İdarəçilik Akademiyası təsis etdi) və* ***"is best known for her roles in a number of movies"*** *(ən çox filmlərdəki rollarına görə tanınır) fikirləri mətnə əsasən yanlışdır. Verilən digər iki fikir isə* ***"earned a full scholarship to Tennessee State University" (****Tennesi Universitetinə tam təqaüd qazandı****), "has been listed as one of the most influential people in the world"*** *(dünyada ən nüfuzlu insanlardan biri kimi siyahıda verilib****)*** *cümləni tamamlayır. Beləliklə, test tapşırığının* ***doğru cavabı*** *1 və 4 deyil,* ***2 və 3-dür.***

***Fulfil the tasks number 4 – 6 in the "Answer sheets".***

**A variantı 4 saylı test tapşırığı**
**B variantı 4 saylı test tapşırığı**
**C variantı 4 saylı test tapşırığı**
**D variantı 4 saylı test tapşırığı**

Write the correct answer to the question according to the passage.

*Which important topics were covered in the Oprah Winfrey Show?*

**Alt-standart:** 6-1.1.1. Müraciətlər zamanı sualları cavablandırır.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada verilmiş suala mətnə əsasən cavab yazmaq tələb olunur. Verilmiş sual **"discrimination, poverty, and violence"** kimi cavablandırılmalıdır.*

**A variantı 5 saylı test tapşırığı**
**B variantı 5 saylı test tapşırığı**
**C variantı 5 saylı test tapşırığı**
**D variantı 5 saylı test tapşırığı**

Complete the sentence according to the passage.

*Oprah Winfrey represents how hard work and determination can … .*

**Alt-standart:** 7-1.1.1. Müraciətlərə uyğun tapşırıqları icra edir.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada verilmiş cümləni dinləmə mətninə əsasən tamamlamaq tələb olunur. Bu natamam cümlə mətndə **"She represents how hard work and determination can take you to the highest point."** (O, zəhmət və məqsədyönlülüyün səni zirvəyə necə apara biləcəyini göstərir.) kimi verilmişdir. Buna görə də, test tapşırığının **doğru cavabı "take you to the highest point"** fikridir.*

**A variantı 6 saylı test tapşırığı**
**B variantı 6 saylı test tapşırığı**
**C variantı 6 saylı test tapşırığı**
**D variantı 6 saylı test tapşırığı**

Write one adjective from the passage that describes the word "*student*".

**Alt-standart:** 7-1.1.1. Müraciətlərə uyğun tapşırıqları icra edir.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada verilmiş **"student"** ismini təsvir edən sifəti yazmaq tələb olunur. Mətndə verilmiş **"Despite her struggles, Oprah was a bright student."** cümləsinə əsasən, test tapşırığının **doğru cavabı "bright"** sifətidir.*

**A variantı 7 saylı test tapşırığı**
**B variantı 9 saylı test tapşırığı**
**C variantı 12 saylı test tapşırığı**
**D variantı 17 saylı test tapşırığı**

Choose the correct option.

*It is late autumn, but there are still … flowers in the garden.*

1. a few 2. much 3. some 4. a lot

A) 1, 3 B) 1, 2 C) 3, 4 D) 2, 4 E) 2, 3

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə:** Kəmiyyət bildirən sözlər

**İzah:** *Bu test tapşırığında kəmiyyət bildirən doğru sözləri tapmaq tələb olunur. Cümlədə verilmiş "**flowers**" sözü sayılan cəm isimdir. "**Much**" sözü sayılmayan isim tələb edir. "**A lot**" isə zərfdir və isimlə işlənmir. Ona görə də **doğru cavab** sayılan isimlərlə işlənən"**a few**" və **"some"** sözləridir.*

**A variantı 8 saylı test tapşırığı**
**B variantı 19 saylı test tapşırığı**
**C variantı 17 saylı test tapşırığı**
**D variantı 13 saylı test tapşırığı**

Choose the correct interrogative word.

*… did you tell your secret to?*

A) How B) How much C) When
D) Who E) Why

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə**: Sual cümlələri

**İzah:** *Verilən test tapşırığında düzgün sual əvəzliyini müəyyən edib cümləni tamamlamaq tələb olunur. **"… did you tell your secret to?"** ("Sirrini ...-ə dedin?") cümləsi üçün **"how"** (necə), **"how much"** (nə qədər), **"when"** (nə zaman), **"why"** (niyə) sual əvəzlikləri məna baxımından səhvdir. Odur ki, **"Who did you tell your secret to?"** (Sirrini kimə dedin?) cümləsinin **doğru cavabı "who"** sual əvəzliyi olan bənddir.*

**A variantı 9 saylı test tapşırığı**
**B variantı 18 saylı test tapşırığı**
**C variantı 8 saylı test tapşırığı**
**D variantı 22 saylı test tapşırığı**

Choose the correct degree of the adjective.

*This movie is … than the other one.*

A) more frightening B) very frightening
C) much frightening D) too frightening
E) frightening

**Alt-standart:** 6-3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir

**Bölmə:** Sifət

**İzah**: *Bu test tapşırığında verilmiş cümləni tamamlamaq üçün müvafiq sifətin müvafiq dərəcəsini seçmək tələb olunur. Bildiyimiz kimi, cümlədə "**than**" bağlayıcısı özündən əvvəl gələn sifətin müqayisə dərəcəsində olmasını tələb edir. **"Very frightening"** , **"much frightening"**, **"too frightening"** və **"frightening"** sifətin adi dərəcəsindədir. Buna görə də, test tapşırığının **doğru cavabı** "**more frightening**" sifətinin qeyd olunduğu bənddir.*

**A variantı 10 saylı test tapşırığı**
**B variantı 7 saylı test tapşırığı**
**C variantı 7 saylı test tapşırığı**
**D variantı 20 saylı test tapşırığı**

Choose the correct option.

*There was a storm … night, it rained … three or four hours.*

A) for, at B) on, for C) at, for
D) in, at E) at, on

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə**: Sözönü

**İzah**: *Bu test tapşırığında verilmiş cümlədə buraxılmış sözönüləri əlavə etməklə, cümləni tamamlamaq tələb olunur. Verilən cümlədə **"... night"** sözü artiklsız işləndiyi üçün onun qarşısında "**at**" sözönüsü və ikinci tərəfdə "**… three or four hours**" birləşməsi "for" sözönüsü tələb etdiyi üçün **doğru cavab** "**at, for**" olan bənddir.*

**A variantı 11 saylı test tapşırığı**
**B variantı 10 saylı test tapşırığı**
**C variantı 22 saylı test tapşırığı**
**D variantı 7 saylı test tapşırığı**

Choose the correct option.

*She let him ... the notebook.*

A) have taken B) are taking C) take
D) to take E) took

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə:** Feilin şəxssiz formaları. Mürəkkəb tamamlıq

**İzah**: *Bu test tapşırığında verilmiş cümləni feilin müvafiq forması ilə tamamlamaq tələb olunur.* **Let** *feilindən sonra mürəkkəb tamamlığın tərkibində* ***"to"*** *hissəciksiz məsdər işləndiyi üçün* ***"have taken"***, ***"are taking"***, ***"to take"***, ***"took"*** *feilləri doğru cavab deyil. Beləliklə,* **doğru cavab** *"****take****" feili olan bənddir.*

**A variantı 12 saylı test tapşırığı**
**B variantı 15 saylı test tapşırığı**
**C variantı 19 saylı test tapşırığı**
**D variantı 16 saylı test tapşırığı**

Complete the sentence.

*I want to know ... .*

A) has the meeting begun
B) when the meeting begins
C) that the meeting begins
D) when will the meeting begin
E) when the meeting has begun

**Alt-standart:** 9-4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır

**Bölmə**: Cümlə tamamlama

**İzah**: *Bu test tapşırığında baş cümləni tamamlıq budaq cümləsi ilə tamamlamaq tələb olunur. Bu halda budaq cümlədə söz sırası nəqli cümlədə olduğu kimi olmalıdır. Ona görə də bəndlərdə verilmiş* ***"has the meeting begun", "when will the meeting begin"*** *budaq cümlələri quruluşca sual formasında olduğu üçün yanlışdır. Tamamlıq budaq cümləsində "when" bağlayıcısından sonra indiki bitmiş zaman forması işlənmir. Bu baxımdan,* ***"when the meeting has begun"*** *budaq cümləsi yanlışdır. "That" bağlayıcısı "want to know" feili birləşməsindən sonra işlənmədiyinə görə "****that the meeting begins****" budaq cümləsi də yanlışdır.* ***Doğru cavab "when the meeting begins"*** *bəndidir.*

**A variantı 13 saylı test tapşırığı**
**B variantı 22 saylı test tapşırığı**
**C variantı 21 saylı test tapşırığı**
**D variantı 12 saylı test tapşırığı**

Choose the correct option.

Choose the correct conjunction.

*Julia was happy ... she had passed her final exam successfully.*

A) although B) but C) or
D) because E) though

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə**: Bağlayıcı

**İzah**: *Bu test tapşırığında verilmiş cümləni müvafiq bağlayıcı ilə tamamlamaq tələb olunur. "****Julia was happy … she had passed her final exam successfully.****" cümləsi üçün bəndlərdə verilən* ***"although"*** *(baxmayaraq ki),* ***"but"*** *(amma),* ***"or"*** *(və ya) və* ***"though"****(baxmayaraq ki) bağlayıcıları məntiqi cəhətdən test tapşırığının doğru cavabı deyildir. Beləliklə, bu test tapşırığının* ***doğru cavabı "because"*** *(çünki) bağlayıcısı olan bənddir.*

**A variantı 14 saylı test tapşırığı**
**B variantı 8 saylı test tapşırığı**
**C variantı 11 saylı test tapşırığı**
**D variantı 19 saylı test tapşırığı**

Choose the correct option.

*Nick is always ready to help. He is … .*

1. generous
2. greedy
3. disrespectful
4. kind

A) 3, 4 B) 2, 3 C) 1, 2 D) 1, 4 E) 2, 4

**Alt-standart:** 6- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir

**Bölmə:** Sözün mənası

**İzah:** *Bu test tapşırığı teksik bazanı ölçmək üçün nəzərdə tutulub. Verilmiş cümlədə kömək etməyə hazır birini təsvir edən sifətlər tələb olunur.* ***"Nick is always ready to help. He is … ."*** *(Nik həmişə kömək etməyə hazırdır. O ... .) "****Greedy" (acgöz), "disrespectful" (tərbiyəsiz)*** *sözləri mənfi xüsusiyyətləri ifadə etdiyi üçün yanlışdır.* ***"Generous"*** *(əliaçıq) və "****kind"*** *(mərhəmətli) sözləri test tapşırığının* ***doğru cavabıdır****.*

**A variantı 15 saylı test tapşırığı**
**B variantı 20 saylı test tapşırığı**
**C variantı 10 saylı test tapşırığı**
**D variantı 10 saylı test tapşırığı**

Choose the correct tense form.

*The sportsmen became tired while they ... basketball.*

A) have played B) were playing C) play
D) are playing E) will play

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə:** Feilin zaman formaları

**İzah:** *Bu test tapşırığında feilin düzgün zaman formasını müəyyən etmək tələb olunur. Burada "while"bağlayıcısı ilə işlənən zaman budaq cümləsi verilmişdir. Baş cümlə keçmiş sadə zaman formasında olduğuna görə, budaq cümlə də müvafiq olaraq, baş cümlə ilə uzlaşmalıdır.* ***"have played", "play", "are playing"*** *və* ***"will play"*** *bəndləri baş cümlə ilə uzlaşmadığı üçün yanlışdır. Buna görə də, test tapşırığının düzgün cavabı* ***"were playing"*** *işlənən bənddir.*

**A variantı 16 saylı test tapşırığı**
**B variantı 12 saylı test tapşırığı**
**C variantı 14 saylı test tapşırığı**
**D variantı 18 saylı test tapşırığı**

Choose the line of nouns.

A) mountain, comfortable B) homework, easy
C) picture, culture D) plane, silent
E) meal, dangerous

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə:** Feilin şəxssiz formaları

**İzah**: *Bu test tapşırığında isimlər verilən cərgəni seçmək tələb olunur.* ***"comfortable", "easy", "silent", "dangerous"*** *sözləri sifət olduğu üçün* ***"mountain, comfortable", "homework, easy", "plane, silent"*** və ***"meal, dangerous"*** *seçimləri* **doğru cavab** deyil. ***Doğru cavab "picture, culture"*** *isimləri olan bənddir.*

**A variantı 17 saylı test tapşırığı**
**B variantı 16 saylı test tapşırığı**
**C variantı 16 saylı test tapşırığı**
**D variantı 11 saylı test tapşırığı**

Make up a sentence.
1. the students
2. are translated
3. twice a week
4. by
5. new articles
6. at the lesson

A) 1, 4, 5, 6, 2, 3 B) 3, 2, 6, 5, 4, 1
C) 5, 2, 4, 1, 6, 3 D) 2, 6, 4, 3, 1, 5
E) 5, 2, 1, 4, 3, 6

**Alt-standart:** 5-4.1.1. Verilmiş sözləri məna və qrammatik cəhətdən əlaqələndirərək cümlələr qurur.
**Bölmə:** Cümlə düzəltmə
**İzah:** *Bu test tapşırığında verilmiş sözləri müvafiq ardıcıllıqla düzməklə cümlə qurmaq tələb olunur. İngilis dilinin söz sırasnı nəzərə alaraq, verilmiş sözləri doğru ardıcıllıqla düzərək,* ***"New articles are translated by the students at the lesson twice a week."*** *cümləsini qururuq. Test tapşırığının* ***doğru cavabı*** *5, 2, 4, 1, 6, 3 olan bənddir.*

**A variantı 18 saylı test tapşırığı**
**B variantı 13 saylı test tapşırığı**
**C variantı 9 saylı test tapşırığı**
**D variantı 8 saylı test tapşırığı**

Choose the correct Passive Voice version of the given sentence.
*Our head chef has created this dish today.*
A) This dish was been created today.
B) This dish had been created today.
C) This dish is created today.
D) This dish was created today.
E) This dish has been created today.

**Alt-standart:** 9-4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır.
**Bölmə:** Məchul növ
**İzah:** *Bu test tapşırığında məlum növdə olan cümləni məchul növə çevirmək tələb olunur. Verilmiş cümlənin xəbəri* ***"Our head chef has created this dish today."*** *indiki bitmiş zaman formasındadır. Bəndlərdə verilən "****This dish was been created today.****" cümləsinin xəbəri həm keçmiş zaman formasında, həm də "been" feili ilə işləndiyi üçün;* ***"This dish had been created today."*** *cümləsinin xəbəri keçmiş bitmiş zaman formasında olduğu üçün;* ***"This dish is created today."*** *cümləsinin xəbəri indiki sadə zaman formasında olduğu üçün;* ***"This dish was created today."*** *cümləsinin xəbəri isə keçmiş sadə zaman formasında olduğu üçün səhvdir.* ***"This dish has been created today."*** *cümləsinin isə xəbəri müvafiq zaman formasında olduğuna görə* testin ***doğru cavabıdır***.

**A variantı 19 saylı test tapşırığı**
**B variantı 21 saylı test tapşırığı**
**C variantı 20 saylı test tapşırığı**
**D variantı 21 saylı test tapşırığı**

Choose the correct option.
*As ... is bought, we do not need to buy ... else.*
A) nothing, something
B) everything, anything
C) everything, nothing
D) nothing, any
E) all, some

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** Əvəzlik
**İzah:** *Bu test tapşırığında verilmiş cümlədə boşluqları müvafiq əvəzliklərlə tamamlamaq tələb olunur. Verilmiş cümlənin birinci hissəsinin xəbəri təsdiq formasında olduğu üçün* ***"nothing"*** *əvəzliyi ilə verilən variantlar məntiqi baxımdan uyğun gəlmir. Cümlənin ikinci hissəsinin feili inkarda olduğu üçün "****something****", "****nothing****", "****some****" əvəzlikləri buraya uyğun gəlmir. "****Any****" əvəzliyindən sonra "****else****" sözü işləndiyi üçün, bu yanlış cavabdır.* ***Doğru cavab "everything, anything"*** *əvəzlikləri olan bənddir.*

**A variantı 20 saylı test tapşırığı**
**B variantı 17 saylı test tapşırığı**
**C variantı 15 saylı test tapşırığı**
**D variantı 9 saylı test tapşırığı**

Choose the correct option.
*You ... to do your best to get a higher degree.*
A) should B) must C) could
D) have E) has

**Alt-standart:** 6- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir.
**Bölmə:** Feil. Modal feillər
**İzah:** *Bu test tapşırığında verilmiş cümləni müvafiq modal feil ilə tamamlamaq tələb olunur. Verilmiş cümlədə* ***"You ... to do your best to get a higher degree."*** *məsdərin qarşısında "to" hissəciyi işləndiyi üçün bəndlərdəki* ***"should", "must" və "could"*** *modal feilləri doğru cavab ola bilməz,* ***"has"*** *feili isə mübtəda ilə şəxsə və kəmiyyətə görə uzlaşmadığı üçün səhvdir.* ***"Have"*** *modal feili qrammatik cəhətdən uyğun gəldiyi üçün, test tapşırığının* ***doğru cavabıdır****.*

**A variantı 21 saylı test tapşırığı**
**B variantı 14 saylı test tapşırığı**
**C variantı 13 saylı test tapşırığı**
**D variantı 15 saylı test tapşırığı**

Match the verbs to their definitions.
1. to show
2. to scold
3. to share
a. to let someone see something
b. to divide something between two or more people
c. to speak angrily to somebody because they have done something wrong

A) 1 – a, 2 – b, 3 – c B) 1 – b, 2 – a, 3 – c
C) 1 – b, 2 – c, 3 – a D) 1 – c, 2 – a, 3 – b
E) 1 – a, 2 – c, 3 – b

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** Leksika
**İzah:** *Bu test tapşırığında verilmiş sözləri izahları ilə uyğunlaşdırmaq tələb olunur. "****To show****" – "****to let someone see something****" (kiməsə nəyisə görməyə icazə vermək), "****to scold****" – "****to speak angrily to somebody because they have done something wrong****" (etdiyi səhvə görə kiminləsə acıqlı danışmaq), "****to share****" –* ***"to divide something between two or more people.****" (iki və daha çox insan arasında nəyisə bölüşdürmək) kimi olduğu üçün 1-a, 2-c, 3-b olan bənd* ***doğru cavabdır****.*

**A variantı 22 saylı test tapşırığı**
**B variantı 11 saylı test tapşırığı**
**C variantı 18 saylı test tapşırığı**
**D variantı 14 saylı test tapşırığı**

Choose the correct option.

*What is … quickest animal in … world?*

A) a, a B) -, the C) the, -
D) a, - E) the, the

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə:** Artikl

**İzah:** *Bu test tapşırığında verilmiş cümləni müvafiq artikllarla tamamlamaq tələb olunur. Cümlədə sifət üstünlük dərəcəsində* ***(“the quickest”)*** *olduğu üçün və vahidlik bildirən isimlərlə* ***“the”*** *artiklı işləndiyi üçün,* ***(“the world”)*** *test tapşırığının* ***doğru cavabı “the, the”*** *artikllarının verildiyi bənddir.*

***Read the passage and answer questions 23 – 30.***

1. Niihau is the seventh largest island in Hawaii with fewer than 200 people. In 1864, the Robinson family from Scotland bought this island. They allowed indigenous population to stay on the island and use their native language – Hawaiian. Being the owners of Niihau, the Robinsons established new rules there. According to the rules, they forbade tourists to visit the island. Their main purpose was to protect the culture and traditions of the local people of the island. That’s why, people began to call it “Forbidden Island”.

2. Since 1987, the Robinsons have changed the rules. The access of tourists to the island has become possible only by special invitation. Half-day helicopter tours and hunting trips have been available for visitors.

3. Today, the indigenous people of Niihau mainly go fishing and hunting to get their food. Niihau isn’t rich in plants and flowers, as it receives very little rain. The shores of the island are home to about eighty Monk seals, which are endangered. Sometimes, these seals come close to the island, so visitors may have an opportunity to see them.

**A variantı 23 saylı test tapşırığı**
**B variantı 25 saylı test tapşırığı**
**C variantı 23 saylı test tapşırığı**
**D variantı 24 saylı test tapşırığı**

Complete the sentence according to the passage.

*The Robinsons … .*

A) created their own rules on the island
B) sold Niihau to the Hawaiian population
C) changed the language of Niihau
D) made the native people leave the island
E) came from indigenous Hawaiian roots

**Alt-standart:** 8-3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.

***İzah:*** *Bu test tapşırığı oxu mətninə aiddir. Mətnə əsasən verilən cümləni tamamlayan bəndi müəyyən etmək tələb olunur. Cümləni tamamlamaq üçün mətnin 1-ci abzasının son 2-ci və 3-cü cümləsinə nəzər yetirmək lazımdır:* ***“In 1864, the Robinson family from Scotland bought this island. They allowed indigenous population to stay on the island and use their native language – Hawaiian. Being the owners of Niihau, the Robinsons established new rules there.”*** *(1864-cü ildə Şotlandiyadan olan Robinson ailəsi adanı aldı. Onlar yerli xalqa adada qalmağa və yerli dillərini – Havai dili – istifadə etməyə icazə verdilər. Adanın sahibləri olaraq yeni qaydalar qoydular.) Buradan aydın olur ki, test tapşırığının* ***doğru cavabı “created their own rules on the island”*** *fikrinin qeyd olunduğu bənddir.*

**A variantı 24 saylı test tapşırığı**
**B variantı 24 saylı test tapşırığı**
**C variantı 25 saylı test tapşırığı**
**D variantı 23 saylı test tapşırığı**

Which statement is true according to the passage?

A) Fishing and hunting are the main ways of getting food for the native people.
B) The Robinson family changed the traditions of the native people of Hawaii.
C) There are hundreds of Hawaiian Monk seals living on the island.
D) Tourists can visit the “Forbidden Island” any time they wish.
E) Niihau is home to colourful plants and flowers due to its high rainfall.

**Alt-standart:** 8-3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və mətnə əsasən düzgün fikirləri seçmək tələb olunur. Mətnlə tanış olduqda, görürük ki,* ***“The Robinson family changed the traditions of the native people of Hawaii.”, “There are hundreds of Hawaiian Monk seals living on the island”, “Tourists can visit the “Forbidden Island” any time they wish.”, “Niihau is home to colourful plants and flowers due to its high rainfall.”*** *fikirlərində təhriflər var.* ***“Fishing and hunting are the main ways of getting food for the native people.”*** *(Balıq tutmaq və ovçuluq yerli xalqın əsas qida əldə etmə yollarıdır.) fikri mətndə öz əksini tapdığına görə, test tapşırığının* ***doğru cavabı*** *“****Fishing and hunting are the main ways of getting food for the native people.****” olan bənddir.*

**A variantı 25 saylı test tapşırığı**
**B variantı 26 saylı test tapşırığı**
**C variantı 24 saylı test tapşırığı**
**D variantı 26 saylı test tapşırığı**

The passage is mainly about … .

A) tourist destinations in Hawaii
B) one of the largest islands in Hawaii
C) disappearing animals in Hawaii
D) helicopter tours and hunting trips
E) the nature of Hawaii’s main islands

**Alt-standart:** 7-3.1.4. Mətndəki əsas fikri müəyyən edir.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və mətnin əsasən nədən bəhs etdiyi soruşulur. Verilmiş bəndlərdən* ***“disappearing animals in Hawaii”, “helicopter tours and hunting trips”, “the nature of Hawaii’s main islands”*** *və* ***“tourist destinations in Hawaii”*** *fikirləri mətndə verilsə də, mətnin əsas məzmununu təşkil etmir. Mətn, əsasən,* ***Havainin ən böyük adalarından birindən*** *bəhs etdiyi üçün test tapşırığının* ***doğru cavabı “one of the largest islands in Hawaii”*** *olan bənddir.*

**A variantı 26 saylı test tapşırığı**
**B variantı 23 saylı test tapşırığı**
**C variantı 26 saylı test tapşırığı**
**D variantı 25 saylı test tapşırığı**

Choose the correct answer to the question according to the passage.

*Why was Niihau called the "Forbidden Island"?*
A) Foreigners were not allowed to visit the island.
B) Helicopter tours were forbidden on the island.
C) The Robinsons didn't allow to use the Hawaiian language on the island.
D) The Robinsons were against preserving old traditions of the island.
E) The Robinson family didn't let the Hawaiians live on the island.

**Alt-standart:** 8-3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.
***İzah:*** *Bu test tapşırığı oxu mətninə aiddir. Mətnə əsasən verilmiş suala doğru cavabı müəyyən etmək tələb olunur. Suala cavab vermək üçün mətnin 1-ci abzasının son 3 cümləsinə nəzər yetirmək lazımdır:* ***"According to the rules, they forbade tourists to visit the island. Their main purpose was to protect the culture and traditions of the local people of the island. That's why, people began to call it "Forbidden Island"."*** *Bu qaydalara əsasən turistlərin adaya girişi qadağan olundu. Əsas məqsəd adanın yerli xalqının mədəniyyətini və adət-ənənələrini qorumaq idi. Buna görə də insanlar buranı "Qadağan olunmuş ada" adlandırmağa başladılar. Buradan aydın olur ki, test tapşırığının* ***doğru cavabı "Foreigners were not allowed to visit the island."*** *fikrinin qeyd olunduğu bənddir.*

***Fulfil the tasks number 27 – 30 in the "Answer sheets".***

**A variantı 27 saylı test tapşırığı**
**B variantı 27 saylı test tapşırığı**
**C variantı 27 saylı test tapşırığı**
**D variantı 27 saylı test tapşırığı**

Which word from paragraph 1 best fits the following definition "*to keep somebody or something safe*"?
**Alt-standart:** 7- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir
**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada izahı verilmiş sözü 1-ci abzasdan müəyyən edib yazmaq tələb olunur. İzahı verilən söz "****to protect" (qorumaq)*** *feilidir.*

**A variantı 28 saylı test tapşırığı**
**B variantı 28 saylı test tapşırığı**
**C variantı 28 saylı test tapşırığı**
**D variantı 28 saylı test tapşırığı**

Write the synonym of the word "*nowadays*" from paragraph 3.
**Alt-standart:** 10-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada* ***"nowadays" (indi)*** *sözünün 3-cü abzasda verilən sinonimini müəyyən edib yazmaq tələb olunur. Bu test tapşırığının* ***doğru cavabı "today" (bu gün)*** *sözüdür.*

**A variantı 29 saylı test tapşırığı**
**B variantı 29 saylı test tapşırığı**
**C variantı 29 saylı test tapşırığı**
**D variantı 29 saylı test tapşırığı**

Complete the sentence by changing at least 2 words according to the passage.
*Sometimes the seals come close to the island, so … .*

**Alt-standart:** 8- 3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır; 9-3.1.4. Oxuduğu mətnin məzmununa münasibət bildirir.
**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada verilmiş cümləni mətnə əsasən ən azı 2 sözü dəyişməklə tamamlamaq tələb olunur. Verilmiş "Sometimes the seals come close to the island, so … ." cümləsini* ***"tourists (guests, travelers) can (could) have a chance to observe (watch, view) them"*** *şəklində tamamlamaq mümkündür.*

**A variantı 30 saylı test tapşırığı**
**B variantı 30 saylı test tapşırığı**
**C variantı 30 saylı test tapşırığı**
**D variantı 30 saylı test tapşırığı**

Answer the question by expressing your opinion. Write at least three sentences.
*Which interesting places would you like to visit in the world and why?*

**Alt-standart:** *7 – 4.1.2. Müxtəlif əşya və hadisələri təsvir edir. 9 – 4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır. 10 – 4.1.3. Cümlələri və abzasları düzgün əlaqələndirmək üçün bağlayıcı vasitələrdən istifadə edir. 11 – 3.1.4. Mətndəki fakt və hadisələri real həyatla əlaqələndirərək şərh edir.*
**İzah:** *Bu açıq tipli suala öz fikrini ifadə etməklə ən azı üç cümlə ilə cavab yazmaq tələb olunur. Cavab yazarkən birləşdirici vasitələrin köməyi ilə fikirləri əlaqəli və ardıcıl şəkildə ifadə etmək, fikirlər arasında məntiqi rabitəni təmin etmək, müxtəlif qrammatik forma və strukturlardan (sadə və mürəkkəb cümlələr) düzgün və yerində istifadə etməklə zaman uzlaşmasını gözləmək və mövzuya uyğun söz və söz birləşmələrindən yerində və düzgün şəkildə istifadə etmək tələb olunur. Bu suala nümunə cavab aşağıdakı kimi ola bilər:*

*Actually, there are a lot of places in the world that I'd like to visit. But most of all I'd like to visit Como Lake in Italy. It has an amazing view especially in spring and summer seasons. I love nature, it makes me calm and happy. Como Lake is one of the best places for enjoying nature and life altogether. I hope I will visit Como Lake one day.*

## Azərbaycan dili

**A variantı 31 saylı test tapşırığı**
**B variantı 35 saylı test tapşırığı**
**C variantı 37 saylı test tapşırığı**
**D variantı 33 saylı test tapşırığı**

Ədat işlənmiş cümlələri müəyyən edin.
1. Qoysana həyatdan bir az zövq alım.
2. Cəsarət də, sədaqət də çətin gündə sınanar.
3. Bu həkim həftənin tək günləri işləyir.
4. Bu iş ki sənə tapşırılmışdı.
5. O, heç vaxt artıq söz danışmazdı.
6. Bəli, vaxtında gəlmisən.

A) 1, 4, 6   B) 2, 4, 6   C) 2, 3, 4
D) 1, 5, 6   E) 1, 3, 5

***Mövzu:*** Köməkçi nitq hissələri

***Sinif:*** 7
***İzah:*** Ədatdan 1- ci *( qoysana ),* 4 - cü *( ki ) və* 6-cı *( bəli )* cümlələrdə istifadə edilmişdir. 2- ci cümlədə istifadə olunan *də* bağlayıcı, 3- cü cümlədə istifadə olunan *tək,* 5- ci cümlədə istifadə olunan *artıq* sifətdir, çünki hər ikisi ismə aiddir.
***Doğru cavab:*** 1, 4, 6

**A variantı 32 saylı test tapşırığı**
**B variantı 31 saylı test tapşırığı**
**C variantı 34 saylı test tapşırığı**
**D variantı 40 saylı test tapşırığı**

Aşağıdakı hansı nümunələrdə ismin müxtəlif hallarında olan əvəzliklər həm də ismi əvəz etmişdir?

1. Dedi: "İnanaram qüdrətinə mən,
   Onun dırnağını başına tiksən". (N. Gəncəvi)
2. Bu qoca dünyanın şahidiyəm mən,
   Kölgəmdə dincəlir hər gəlib-gedən.
   (S. Vurğun)
3. Tələb edirdi ki, onu həmin kəndə göndərsin. (S. Hüseyn)
4. İndi Ziba hər axşam onun yanına gəlir, ona bir çox şeylər danışıb nəql edirdi. (S. Hüseyn)
5. Təkcə mən deyiləm hüsnünə mail,
   Göz dikibdir tamam Qarabağ sənə. (Q. Zakir)
6. Azərbaycan övladı! Sənindir bu məmləkət. (Z. Yaqub)

A) 4, 5, 6　B) 1, 4, 5　C) 1, 3, 5
D) 2, 3, 6　E) 2, 3, 4

***Mövzu:*** Morfologiya
***Sinif:*** 5
***İzah:*** 1- ci cümlədə istifadə olunan *mən* və *onun* , 4- cü cümlədə istifadə olunan *onun, ona,* 5-ci cümlədə istifadə olunan *mən* və *sənə* əvəzlikləri həm ismi əvəz etmiş, həm də ismin müxtəlif hallarındadır.
2-ci cümlədə ismi əvəz edən yalnız *mən* , 3-cü cümlədə ismi əvəz edən yalnız *onu* , 6-cı cümlədə isə ismi əvəz edən yalnız *sənindir* əvəzliyidir.
***Doğru cavab:*** 1, 4, 5

**A variantı 33 saylı test tapşırığı**
**B variantı 39 saylı test tapşırığı**
**C variantı 38 saylı test tapşırığı**
**D variantı 31 saylı test tapşırığı**

"*Təzə açılmış çiçəkləri görəndə, yazın ılıq nəfəsini sinənə çəkəndə adamı qəribə hisslər bürüyür*" cümləsində həmcins zaman zərflikləri nə ilə ifadə olunub?

A) zərflə
B) ismi birləşmə ilə
C) feili bağlama tərkibləri ilə
D) feili bağlamalarla
E) feili sifət tərkibləri ilə

***Mövzu:*** Həmcins üzvlər
***Sinif:*** 8
***İzah:*** Cümlədə *görəndə* feili bağlaması *təzə açılmış çiçəkləri* sözlərini, *sinənə çəkəndə* feili bağlaması *yazın ılıq nəfəsini* sözlərini özünə birləşdirərək tərkib əmələ gətirmişdir. Bu tərkiblər də həmcins zərfliklərin ifadə vasitələridir.
***Doğru cavab:*** feili bağlama tərkibləri ilə.

**A variantı 34 saylı test tapşırığı**
**B variantı 37 saylı test tapşırığı**
**C variantı 31 saylı test tapşırığı**
**D variantı 36 saylı test tapşırığı**

Hansı cərgədəki hər iki sözdə eyni hərf buraxılmışdır?

A) dekl...masiya, ek...loji
B) etim...logiya, əd...baz
C) de...ektiv, is...irahət
D) həş...rat, f...ntan
E) deb...tant, k...zə

***Mövzu:*** Fonetika
***Sinif:*** 5
***İzah:*** Verilmiş sözlərin düzgün yazılışı:
*deklamasiya, ekoloji*
*etimologiya, ədabaz*
*detektiv, istirahət*
*həşərat, fontan*
*debütant, kuzə*
***Doğru cavab:*** detektiv, istirahət

**A variantı 35 saylı test tapşırığı**
**B variantı 33 saylı test tapşırığı**
**C variantı 33 saylı test tapşırığı**
**D variantı 39 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.

1. Baş üzvləri feillə ifadə olunan cümlədir.
2. Baş üzvləri söz birləşməsi ilə ifadə olunan cümlədir.
3. Baş üzvlərdən yalnız birinin iştirak etdiyi cümlədir.

a. İşləyənlər həmişə lazımınca mükafatlandırılırlar.
b. Qəlbində anlaşılmaz hisslər olan Surxay yarımçıq qalmış simfoniyasını davam etdirmədi.
c. Bədən dili davranışla idarə olunan ünsiyyət növüdür.
d. Hamının sevindiyindən qol-qanad açdığı gün idi.
e. Başqasına aid olan işə qarışmazlar.

A) 1 – a; 2 – b, c; 3 – e
B) 1 – c, d; 2 – b; 3 – a, e
C) 1 – a; 2 – c; 3 – d, e

D) 1 – d, e; 2 – b; 3 – a
E) 1 – b, d; 2 – a; 3 – e

***Mövzu:*** Sintaksis
***Sinif:*** 8
***İzah:*** a. *"İşləyənlər həmişə lazımınca mükafatlandırılırlar"* cümləsində həm xəbər, həm də mübtəda feillə ifadə olunmuşdur ( *işləyənlər, mükafatlandırılırlar*).
b. *"Qəlbində anlaşılmaz hisslər olan Surxay yarımçıq qalmış simfoniyasını davam etdirmədi"* cümləsində mübtəda isimlə *(Surxay)*, xəbər isə feillə *(davam etdirmədi*) ifadə olunmuşdur.
c. *"Bədən dili davranışla idarə olunan ünsiyyət növüdür"* cümləsində həm xəbər, həm də mübtəda söz birləşməsi ilə ifadə olunmuşdur (*bədən dili, ünsiyyət növü*)
d. *"Hamının sevindiyindən qol-qanad açdığı gün idi"* cümləsində baş üzvlərdən yalnız xəbər iştirak edir (*gün idi*) .
e. *"Başqasına aid olan işə qarışmazlar"* cümləsində baş üzvlərdən yalnız xəbər iştirak edir ( *işə qarışmazlar* ) .
***Doğru cavab:*** 1 – a; 2 – c; 3 – d, e

**A variantı 36 saylı test tapşırığı**
**B variantı 38 saylı test tapşırığı**
**C variantı 35 saylı test tapşırığı**
**D variantı 37 saylı test tapşırığı**

"*Çobanın könlü olsa, təkədən pendir tutar*" cümləsi haqqındakı fikirlərdən biri doğru ***deyil***:
A) Baş cümlə müəyyən şəxsli sadə cümlədən ibarətdir.
B) Hər iki cümlə feili xəbərlidir.
C) Baş cümlənin xəbəri feilin gələcək zamanındadır.
D) ○——□ sxeminə uyğundur.
E) Budaq cümlə baş cümləyə bağlayıcı söz və -*sa* şəkilçisi ilə bağlanmışdır.

***Mövzu:*** Tabeli mürəkkəb cümlə.
***Sinif:*** 9
***İzah:*** "*Çobanın könlü olsa, təkədən pendir tutar*" cümləsində baş cümlə ( *təkədən pendir tutar* ) müəyyən şəxsli sadə cümlədən ibarətdir.
Hər iki cümlə feili xəbərlidir (*budaq cümlənin xəbəri feilin şərt şəkli, baş cümlənin xəbəri isə feilin xəbər şəkli ilə ifadə olunmuşdur*).
Baş cümlənin ( *təkədən pendir tutar* ) xəbəri feilin gələcək zamanındadır.
○——□ sxeminə uyğundur.
Budaq cümlə (*çobanın könlü olsa)* baş cümləyə *(təkədən pendir tutar)* bağlayıcı söz və - *sa* şəkilçisi ilə deyil, yalnız – *sa* şəkilçisi ilə bağlanmışdır.
***Doğru cavab:*** Budaq cümlə baş cümləyə bağlayıcı söz və -*sa* şəkilçisi ilə bağlanmışdır.

**A variantı 37 saylı test tapşırığı**
**B variantı 36 saylı test tapşırığı**
**C variantı 36 saylı test tapşırığı**
**D variantı 38 saylı test tapşırığı**

Nümunələr əsasında cədvəldəki uyğun fikirləri müəyyən edin.
- Axırda bu işdən əli üzüldü və soyuqdan donaraq çay sahilinə endi.
- Bu hadisədən sonra polis idarəsinə getdi, itən əşyalarının siyahısını verdi.

| ***Nümunələrdən yalnız birinə aiddir*** | ***Nümunələrdən hər ikisinə aiddir*** |
|---|---|
| 1. Zaman zərfinə aid söz işlənmişdir.<br>2. Ara söz işlənmişdir.<br>3. Feili bağlama tərkibi işlənmişdir. | 4. Zərflik və xəbərdən ibarət sadə cümlədir.<br>5. Təsriflənən feillər keçmiş zamandadır.<br>6. İsmi birləşmə tamamlığın ifadə vasitəsidir. |

A) 2, 3, 6　　B) 1, 4, 5　　C) 2, 5, 6
D) 1, 3, 5　　E) 1, 3, 4

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 5-9
***İzah:*** 1. *"Zaman zərfinə aid söz işlənmişdir"* fikri yalnız ilk nümunəyə aiddir (*axırda*).
2. "*Ara söz işlənmişdir" fikri* hər iki nümunə üçün yanlışdır.
3. "*Feili bağlama tərkibi işlənmişdir"* fikri yalnız ilk nümunəyə aiddir (*soyuqdan donaraq*).
4. "*Zərflik və xəbərdən ibarət sadə cümlədir"* heç bir nümunəyə aid deyil.
5. "*Təsriflənən feillər keçmiş zamandadır"* fikri hər iki nümunəyə aiddir (*əli üzüldü, endi, getdi, verdi)*
6. "*İsmi birləşmə tamamlığın ifadə vasitəsidir"* fikri yalnız ikinci nümunəyə aiddir (*əşyalarının siyahısını*).
***Doğru cavab:*** 1, 3, 5

**A variantı 38 saylı test tapşırığı**
**B variantı 34 saylı test tapşırığı**
**C variantı 40 saylı test tapşırığı**
**D variantı 32 saylı test tapşırığı**

Nümunəyə əsasən doğru fikirləri müəyyən edin.
*Müasir Azərbaycan musiqisinin banisi, professional musiqiçi Ü. Hacıbəyli ixtisasca müəllim olmuş, ömrünün 40 ildən artıq bir dövrünü müəllimlik peşəsinə* ***sərf etmiş****, xalqının maariflənməsi və inkişafı üçün çox faydalı işlər görmüşdür.*

1. İlk sözün həm sinonimi, həm də antonimi var.
2. Tünd-qara hərflərlə yazılmış ifadə mürəkkəb feildir.
3. Sifətin çoxaltma dərəcəsinə aid 2 söz var.
4. "*Peşəkar*" sözünün sinonimi işlənmişdir.
5. "*Bani*" – bir şeyin əsasını qoyan, təqlid edən şəxs deməkdir.

A) 3, 4, 5  B) 1, 4, 5  C) 1, 2, 3
D) 1, 2, 4  E) 2, 3, 5

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 5-6
***İzah:*** 1.İlk sözün həm sinonimi, həm də antonimi var - ( *çağdaş, qədim*).
2. Tünd-qara hərflərlə yazılmış ifadə mürəkkəb feildir - (*sərf etmiş*).
3. *Sifətin çoxaltma dərəcəsinə aid 2 söz var* fikri yanlışdır, çünki yalnız bir söz (*çox faydalı*) sifətin çoxaltma dərəcəsindədir.
4. "*Peşəkar*" sözünün sinonimi işlənmişdir ( *professional* ).
5. "*Bani*" – bir şeyin əsasını qoyan, təqlid edən şəxs deməkdir fikri *yanlışdır,* çünki *bani təqlid edən* demək deyil.
***Doğru cavab:*** 1, 2, 4

**A variantı 39 saylı test tapşırığı**
**B variantı 32 saylı test tapşırığı**
**C variantı 32 saylı test tapşırığı**
**D variantı 34 saylı test tapşırığı**

Müqayisə cədvəlinə əsasən ***yanlış*** fikirləri müəyyən edin.

| ***gizlədim*** | ***düşünək*** |
|---|---|
| 1. ┌──┐ + ⌒ sxeminə uyğundur.<br>2. Kökü və başlanğıc forması fərqli nitq hissəsinə aiddir. | 3. Yalnız sadə feil kimi düşünmək olur.<br>4. *düşüncə* sözü ilə eyniköklüdür. |
| 5. Tərkibinə görə təhlili 2 cür düşünülə bilər.<br>6. Feilin 2 şəklində düşünmək mümkündür. | |

A) 1, 2, 4  B) 1, 2, 5  C) 1, 3, 4
D) 2, 3, 6  E) 4, 5, 6

***Mövzu:*** Söz yaradıcılığı
***Sinif:*** 5
***İzah:*** 1. ┌──┐ ⌒ sxeminə uyğundur fikri yanlışdır, çünki *gizlədim* sözü ya gizlədim , ya da gizlədim sxeminə uyğun gələ bilər.
2. *Kökü və başlanğıc forması fərqli nitq hissəsinə aiddir* fikri yanlışdır, çünki həm *gözlə*, həm də *gözlət* feildir.

3. *Yalnız sadə feil kimi düşünmək olur fikri doğrudur*, çünki hər iki təhlil sxeminə baxsaq, sadə söz olduğu aydın olur. düşünək , düşünək
4. *düşüncə sözü ilə eyniköklüdür fikri yanlışdır,* çünki *düşüncə* sözü düzəltmə, *düşünək* sözü isə sadə sözdür.
5. *Tərkibinə görə təhlili 2 cür düşünülə bilər* fikri doğrudur, çünki hər iki söz tərkibinə görə iki cür- gizlədim , gizlədim , düşünək , düşünək şəklində təhlil olunur.
6. *Feilin 2 şəklində düşünmək mümkündür* fikri doğrudur, çünki *gizlədim* sözü həm xəbər, həm də əmr şəklində, *düşünək* sözü isə həm arzu, həm də əmr şəklində ola bilər.
***Doğru cavab:*** 1, 2, 4

**A variantı 40 saylı test tapşırığı**
**B variantı 40 saylı test tapşırığı**
**C variantı 39 saylı test tapşırığı**
**D variantı 35 saylı test tapşırığı**

"*Özündən gücsüzə qəzəblənməklə öz gücsüzlüyünü göstərirsən*" cümləsi ilə bağlı ***yanlış*** fikirdir:

A) Təsriflənməyən feil tərkib əmələ gətirmişdir.
B) Üç cümlə üzvü işlənmişdir.
C) Məqsəd və intonasiyaya görə cümlənin 3 növündə işlətmək mümkündür.
D) Altından xətt çəkilmiş söz tabelilik əlaqəsinin yalnız əsas tərəfidir.
E) Şəxssiz sadə cümlədir.

***Mövzu:*** Mövzulararası əlaqə.
***Sinif:*** 6-8
***İzah:*** *Təsriflənməyən feil tərkib əmələ gətirmişdir* fikri doğrudur, çünki *özündən gücsüzə qəzəblənməklə* məsdər tərkibidir.
*Üç cümlə üzvü işlənmişdir* fikri doğrudur, çünki *özündən gücsüzə qəzəblənməklə* tərzi-hərəkət zərfliyi, *öz gücsüzlüyünü* tamamlıq, *göstərirsən* isə xəbərdir.
*Məqsəd və intonasiyaya görə cümlənin 3 növündə işlətmək mümkündür* fikri doğrudur, çünki bu cümləni intonasiyadan asılı olaraq, həm nəqli, həm sual, həm də nida cümləsi şəklində ifadə edə bilərik.
*Altından xətt çəkilmiş söz tabelilik əlaqəsinin yalnız əsas tərəfidir* fikri doğrudur, çünki altından xətt çəkilən söz xəbərdir. Xəbər isə yalnız mübtədadan asılı olur. Bu cümlədə də mübtəda yoxdur.
*Şəxssiz sadə cümlədir* fikri yanlışdır, çünki mübtədası yoxdur, xəbər də ikinci şəxsin təkindədir.
***Doğru cavab:*** Şəxssiz sadə cümlədir.

***41 – 50 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.***

**Sehrli xurcun**

– Köhnə xalça, mis qab-qacaq... Kimdə varsa, toxuduğum təzə xalıya dəyişirəm, – səhərdən axşamadək şəhərin küçələrini gəzən, ■ ***ehtiyac içində yaşayan*** Əli ilə anası Gülxanım qışqıra-qışqıra bu sözləri deyirdilər. [ ]

Əlinin atası dünyasını tez dəyişmişdi. Anası da mahir xalçaçı idi. **1.** O, iplərə bir dəfə toxunmaqla onların keyfiyyətini müəyyənləşdirirdi. İp boyamağın ən yaxşı üsullarını bilirdi. Köhnə xalıları yaxşı tanıyırdı. Əl boyda köhnə xalça parçasına baxır, onun əsl sənət əsəri olub-olmadığını təyin edirdi. Tez-tez kəndə gələn xalça alverçisi Gülxanımın toxuduğu xalçalardan alır və hər dəfə təklif edirdi ki, Gülxanım şəhərə gəlib bu işlə ▲ ***əsaslı məşğul olsun***.

**2.** Günlərin bir günü onlar İçərişəhərdə bir qocaya rast gəldilər. Qoca onlara yaxınlaşıb dedi:

– Əzizlərim, mənim evimdə köhnə əşyalar çoxdur. **3.** Nəvəm ailə qurur. Mən babayam axı. Ona nə isə hədiyyə etməliyəm. <u>Sizin bu xovlu xalçanızı bəyəndim</u>. Gedək bizə, bəlkə, razılaşıb onu nə iləsə dəyişə bildik.

Onlar birbaşa qocanın evinə *gəldilər*[1]. [ ] Qoca xurcunu Gülxanıma verib dedi:

– Götür, qızım, rəhmətlik arvadımdan qalıb. O, gözəl xalılar toxuyardı. **4.** Çox diqqətli idi. İplərə güvə düşməməsi üçün həmişə yumaqları yığdığı xurcuna limon qoyardı.

Gülxanım heyranlıqla iplərə baxırdı: “Nə qeyri-adi rəngləri var?!”

– O, ipləri özü boyayardı. Toxuduğu xalçaları gilabı ilə yuyardı. Xalçanın rənginə şəffaflıq *gələr*[2], üzə gülərdi. Bu bir xurcun ip nəvəmin (1) ........, amma onları xalçaya dəyişsəm, ona əsl (2)......... olar. Götür, qızım. Bu xurcun sehrlidir. O sizə xeyir və bərəkət gətirər.

Gülxanım dedi:

– [ ] Onları götürə bilmərəm.

– Götür, qızım, mənim nəvələrim qədim xurcunun qədrini bilməzlər.

Əli ilə Gülxanım xurcunu götürüb qocaya təşəkkür edərək getdilər. **5.** İndi qocanın nəvəsinə cehiz vermək üçün təzə xalçası var idi. Əli ilə anasının isə bir xurcun rəngbərəng ipi.

Gülxanım sevincindən özünə yer tapa bilmirdi:

– <u>Mən bu iplərdən gözəl bir xalça toxuyacağam.</u>

Gülxanım ●***gecəni gündüzə qatıb*** xalça toxuyurdu. [ ] Xalça ay və ulduz kimi gecələr işıq saçır, səhərlər isə qızılgül ətri verirdi.

Nəhayət, xalça tamamlandı, amma xurcundakı iplər azalmadı, necə var idisə, elə də qaldı. Gülxanım qocanın nə demək istədiyini indi anladı. Sehrli xalça quş lələyi kimi yüngül və çəkisiz idi.

Çox keçmədi, bu qadının toxuduğu xalçanın səs-sorağı hər yerə yayıldı. [ ]. Amma heç kəs bilmədi ki, xurcun sehrlidir.

**A variantı 41 saylı test tapşırığı**
**B variantı 45 saylı test tapşırığı**
**C variantı 45 saylı test tapşırığı**
**D variantı 42 saylı test tapşırığı**

Mətndə boş çərçivələrin yerinə uyğun gələn fikirlərin ardıcıllığını müəyyən edin.

1. Xalçanın sorağını eşidən hər kəs onu görməyə çalışır, işin sirrinə agah olmaq istəyirdi.
2. Şəhərlilər köhnə mis qab-qacağı və heç nəyə yaramayan xalçaları təzəsi ilə böyük həvəslə dəyişirdilər.
3. Sizin xurcununuz və ipləriniz mənim toxuduğum bu xalçadan çox bahadır.
4. Qoca yan otağa keçərək əlində bir xurcun rəngbərəng iplə geri qayıtdı.
5. Əli anasının yanından çəkilmir, gözlərini həmin iplərdən toxunan xalçanın naxışlarından ayırmayaraq ona heyranlıqla baxırdı.

A) 4, 5, 1, 3, 2
B) 2, 3, 4, 5, 1
C) 1, 2, 4, 5, 3
D) 2, 4, 3, 5, 1
E) 5, 1, 2, 4, 3

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:*** *Mətndəki hadisələrin ardıcıllığına əsaslanaraq verilən fikirlər boşluqlara bu ardıcıllıqla yerləşdirilməlidir:*
2. Şəhərlilər köhnə mis qab-qacağı və heç nəyə yaramayan xalçaları təzəsi ilə böyük həvəslə dəyişirdilər.
4. Qoca yan otağa keçərək əlində bir xurcun rəngbərəng iplə geri qayıtdı.
3. Sizin xurcununuz və ipləriniz mənim toxuduğum bu xalçadan çox bahadır.
5. Əli anasının yanından çəkilmir, gözlərini xalçanın naxışlarından ayırmayaraq ona heyranlıqla baxırdı.
1. Xalçanın sorağını eşidən hər kəs onu görməyə çalışır, işin sirrinə agah olmaq istəyirdi.

***Doğru cavab:*** 2, 4, 3, 5, 1

**A variantı 42 saylı test tapşırığı**
**B variantı 41 saylı test tapşırığı**
**C variantı 42 saylı test tapşırığı**
**D variantı 43 saylı test tapşırığı**

Əvvəlində rəqəm yazılmış hansı cümlələr mətndən çıxarılsa, məzmuna xələl ***gəlməz***?

A) 1, 4 B) 3, 5 C) 3, 4 D) 2, 5 E) 1, 2

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:*** Mətnin məzmununa diqqət etdikdə görünür ki, qarşısında *2, 3, 5* rəqəmləri qeyd olunan cümlələri mətdən çıxardıqda məzmun ardıcıllığı pozulur. Lakin qarşısında *1* və *4* rəqəmləri qeyd olunan cümlələr mətndən çıxarıldıqda məzmuna heç bir xələl gəlməz.
***Doğru cavab:*** 1, 4

**A variantı 43 saylı test tapşırığı**
**B variantı 44 saylı test tapşırığı**
**C variantı 41 saylı test tapşırığı**
**D variantı 45 saylı test tapşırığı**

Üzərində rəqəm yazılmış sözlər əsasında uyğunluğu müəyyən edin.

1.
2.

a. *Çatmaq* sözünün qarşılığıdır.
b. *Onun bu xasiyyəti anasından gəlir* cümləsində kontekstə görə eyni mənanı ifadə edən söz işlənmişdir.
c. *Oxşamaq* mənasını ifadə edir.
d. *Geyindiyi paltar əyninə böyük gəlirdi* nümunəsində kontekstə görə eyni mənanı daşıyan söz var.
e. *Utandığından üzünə bir qırmızılıq gələrdi* nümunəsində kontekstə görə mətndəki mənaya uyğun ifadə işlənmişdir.

A) 1 – b; 2 – a, d B) 1 – a; 2 – d
C) 1 – a; 2 – e D) 1 – c, e; 2 – a, b
E) 1 – a, b; 2 – c

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:*** Üzərində 1 rəqəmi yazılmış söz *(gəldilər)* mətndə həqiqi mənada işlənmişdir və *çatmaq* sözü ilə əvəz oluna bilər. Üzərində 2 yazılmış söz *(gələr)* isə məcazi mənadadır və *utandığından üzünə bir qırmızılıq gələrdi* nümunəsindəki *gələrdi* sözü ilə eyni kontekstədir. Digər bəndlərdəki (b, c, d) izahlar isə heç bir sözlə uyğunlaşmır.
***Doğru cavab:*** 1 – a; 2 – e

**A variantı 44 saylı test tapşırığı**
**B variantı 42 saylı test tapşırığı**
**C variantı 43 saylı test tapşırığı**
**D variantı 41 saylı test tapşırığı**

Mətnə əsasən cədvəldəki ***yanlış*** fikirləri müəyyən edin.

| *Səbəb* | *Nəticə* |
|---|---|
| 1. Qoca nəvəsinə cehiz vermək üçün Gülxanımın xalçasını bəyəndi.<br>2. Dünyada tayı-bərabəri olmayan xalça toxunur.<br>3. Qoca Gülxanımın sehrli xurcuna layiq olduğunu anlayır.<br>4. Gülxanımla oğlu köhnə xalçaları satıb yenisini alırdılar.<br>5. Xurcundakı iplər tükənmir. | Xurcun və iplər Gülxanımın olur. |

A) 2, 3, 4 B) 1, 4, 5 C) 1, 3, 5
D) 2, 4, 5 E) 1, 2, 3

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:*** Cədvələ nəzər salsaq, səbəb kimi göstərilən 1-ci və 3- cü cümlələrdəki hadisələrin nəticəsində xurcun və iplər Gülxanımın olur. 2- ci cümlədəki hadisə nəticə kimi verilən fikirdən sonraya aid olduğu üçün doğru götürülə bilməz. 4- cü cümlədə verilmiş fikir tamamilə yanlışdır, çünki onlar köhnə xalçalar satmır, əksinə, köhnə əşyaları yenisi ilə dəyişirdilər. 5- ci cümlədəki hadisə də xurcun və iplər artıq Gülxanımın olduqdan sonra baş verir. Buna görə də *"xurcundakı iplər tükənmir"* fikri nəticə kimi verilən fikrə səbəb ola bilməz.
***Doğru cavab:*** 2, 4, 5

**A variantı 45 saylı test tapşırığı**
**B variantı 43 saylı test tapşırığı**
**C variantı 44 saylı test tapşırığı**
**D variantı 44 saylı test tapşırığı**

Mətnə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

| *Doğrudur* | *Yanlışdır* | *Ehtimaldır* |
|---|---|---|
| 1. Gülxanım köhnə xalçaları yeniləyib köhnə əşyalar alverçisinə satırdı.<br>2. Gülxanım və Əlinin şəhərdə köhnə əşyalara dəyişdirdikləri yeni xalçaları Gülxanım özü toxuyurdu. | 3. Qoca xurcundakı iplərin dəyərini bilmirdi.<br>4. Xalçalar köhnə olsa da, Gülxanım onun əsl sənət əsəri olub-olmadığını təyin edə bilirdi. | 5. Gülxanım xalçaçılıqla uşaqlıqdan məşğul olmağa başlamışdı.<br>6. Qoca evindəki köhnə əşyaları Gülxanıma satmaq istəyirdi. |

A) 1, 2, 3 B) 4, 5, 6 C) 2, 4, 6
D) 1, 3, 6 E) 2, 3, 5

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:*** 1. *Gülxanım köhnə xalçaları yeniləyib köhnə əşyalar alverçisinə satırdı* fikri ehtimal ola bilər, çünki mətndə Gülxanımın xalça alverçisinə satdığı xalçanın yenilənmiş köhnə xalça, yoxsa elə özü toxuduğu yeni xalça olması haqqında dəqiq məlumat yoxdur.
2. *Gülxanım və Əlinin şəhərdə köhnə əşyalara dəyişdirdikləri yeni xalçaları Gülxanım özü toxuyurdu* fikri doğrudur, çünki mətnin giriş hissəsində bu haqda dəqiq məlumat var.
3. *Qoca xurcundakı iplərin dəyərini bilmirdi* fikrinin yanlış olduğunu mətndəki *"Götür, qızım, mənim nəvələrim qədim xurcunun qədrini bilməzlər"* cümləsi sübut edir.
4. *Xalçalar köhnə olsa da, Gülxanım onun əsl sənət əsəri olub-olmadığını təyin edə bilirdi* fikrinin doğru olduğunu mətndəki *"Əl boyda köhnə xalça parçasına baxır, onun əsl sənət əsəri olub-olmadığını təyin edirdi"* fikri ilə təsdiqləmək mümkündür.
5. *Gülxanım xalçaçılıqla uşaqlıqdan məşğul olmağa başlamışdı* fikri ehtimaldır, çünki onun mahir xalçaçı olması haqqında məlumat verilsə də, bu sənətə nə vaxtdan başlaması haqqında dəqiq məlumat yoxdur.
6. *Qoca evindəki köhnə əşyaları Gülxanıma satmaq istəyirdi* fikri yanlışdır, çünki o, əşyaları satmaq yox, xovlu xalça ilə dəyişmək istəyirdi.
***Doğru cavab:*** 2, 3, 5

***46 – 50 saylı tapşırıqları "Cavab vərəqləri"ndə cavablandırın.***

**A variantı 46 saylı test tapşırığı**
**B variantı 46 saylı test tapşırığı**
**C variantı 46 saylı test tapşırığı**
**D variantı 46 saylı test tapşırığı**

Mətndə əvvəlində işarə qoyulmuş ifadələrin mənasını kontekstə əsasən müəyyən edib yazın.

■ ______________________________________
▲______________________________________
●______________________________________

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:***
***Ehtimal edilən doğru cavab nümunələri:***
■ yoxsul həyat sürmək; kasıblıq; yoxsulluq
▲ ciddi şəkildə məşğul olmaq; dərindən məşğul olmaq
● dayanmadan işləmək; fasilə vermədən çalışmaq

**A variantı 47 saylı test tapşırığı**
**B variantı 47 saylı test tapşırığı**
**C variantı 47 saylı test tapşırığı**
**D variantı 47 saylı test tapşırığı**

Altından xətt çəkilmiş cümlələri mətnin səciyyəvi üslubi xüsusiyyətlərinə uyğun zənginləşdirməklə (məcazi mənalı ifadələr artırmaqla) yenidən yazın.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:***
***Ehtimal edilən doğru cavab nümunələri:***
1. Sizin bu xovlu xalçanız xoşuma gəldi; Sizin bu gözoxşayan xovlu xalçanı bəyəndim; Sizin bu xovlu xalçadan ötrü ürəyim getdi; Sizin bu işıq saçan xovlu xalçanızı bəyəndim və s.
2. Bu iplərdən gözoxşayan bir xalça toxuyacağam; Bu iplərdən hər yana səs salan bir xalça toxuyacağam; Bu sehrli iplərdən bir xalça toxuyacağam; İnsanı heyrətə gətirən bu iplərdən bir xalça toxuyacağam və s.

**A variantı 48 saylı test tapşırığı**
**B variantı 48 saylı test tapşırığı**
**C variantı 48 saylı test tapşırığı**
**D variantı 48 saylı test tapşırığı**

Mətnə əsasən Gülxanım obrazı ilə bağlı cədvəli doldurun.

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:***

| *Obrazın xarakterik xüsusiyyətləri* | *Əsaslandırma* |
|---|---|
| 1. | |
| 2. | |

***Ehtimal edilən doğru cavab nümunələri:***

| *Obrazın xarakterik xüsusiyyətləri* | *Əsaslandırma* |
|---|---|
| 1. Zəhmətkeş; Əməksevər | Köhnə xalça, mis qab-qacaq... Kimdə varsa, təzə xalıya dəyişirəm, - səhərdən axşamadək şəhərin küçələrini gəzən Əli ilə anası Gülxanım qışqıra-qışqıra bu sözləri deyirdilər. Səhərdən axşamadək küçələri dolaşaraq alış-verişlə məşğul olurdu. |
| 2. Gözütox; Dürüst; | "Sizin xurcununuz və ipləriniz mənim xalçamdan çox bahadır. Onları götürə bilmərəm". Xurcun və iplərin daha qiymətli olduğunu söyləyərək onları götürməkdən imtina edir. Köhnə xalçaların dəyərini ayırd edə bilir, iplərin keyfiyyətini müəyyənləşdirə bilirdi. |

**A variantı 49 saylı test tapşırığı**
**B variantı 49 saylı test tapşırığı**
**C variantı 49 saylı test tapşırığı**
**D variantı 49 saylı test tapşırığı**

Mətndə nöqtələrin yerinə uyğun ifadələr yazmaqla cümləni tamamlayın.

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:***
***Ehtimal edilən doğru cavab nümunələri:***
1. Nəyinə gərəkdir; işinə yaramaz; köməyinə gəlməz və s.
2. toy hədiyyəsi; sürpriz ; sevinc və s.

**A variantı 50 saylı test tapşırığı**
**B variantı 50 saylı test tapşırığı**
**C variantı 50 saylı test tapşırığı**
**D variantı 50 saylı test tapşırığı**

*"Zər qədrini zərgər bilər"* atalar sözünü mətndə 2 müxtəlif məqamla əlaqələndirib fikirlərinizi yazın.

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:***
***Ehtimal edilən doğru cavab nümunələri:***
1.Gülxanım mahir xalçaçı idi. O, ipləri və köhnə xalçaları yaxşı tanıyırdı. Əl boyda köhnə xalça parçasına baxır, onun əsl sənət əsəri olub-olmadığını təyin edirdi.
2.Qoca Gülxanımın mahir xalçaçı olduğunu anlayır, evində saxladığı bir xurcun ipi ona verir. Çünki bu xurcundakı iplərin qədrini yalnız Gülxanım kimi bir xalçaçının biləcəyini düşünür.
3. Tez-tez kəndə gələn xalça alverçisi Gülxanımın toxuduğu xalçalardan alır və hər dəfə təklif edirdi ki, Gülxanım şəhərə gəlib bu işlə əsaslı məşğul olsun və s.

***51 – 60 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.***

**İnsana bənzəyən və çoxalan robotlar**

2021-ci ildə robotlar dünyasında iki böyük yenilik baş verdi. Bunlardan birincisi dünyada insana ən çox bənzəyən robot idi.

Təsəvvür edin ki, laboratoriyadasınız, bir maneken öncə çiyinlərini hərəkət etdirir, ardınca gözlərini açır. Ətrafına çaşqınlıqla baxdıqdan sonra əlləri ilə bədənini yoxlamağa başlayır. Sonra sanki qorxur və olanları anlamağa çalışır. Nəhayət, əllərini insanlara uzadıb gülümsəyir. Mimikaları eynən insandakı kimidir.

| |
|---|
| İnsanabənzər saxta varlıqlar böyük marağa səbəb olduğundan son illər belə robotların sayında ucalma müşahidə edilir. |

Haqqında bəhs etdiyimiz Ameka adlı yeganə bioloji robotun yaradıcıları da onu eyni səbəbdən hazırladıqlarını deyirlər.

Lakin belə robotlar insana nə qədər bənzədilsə də, onların bir vitrin manekenindən az fərqləndiyini söyləyə bilərik. İnsana məxsus yerimək, ● qaçmaq kimi bacarıqlara da sahib deyillər. Onları, əsasən, əyləncə məqsədi ilə hazırlayırlar. Belə robotlardan birinin – "Boston Dinamiks" şirkətinin yaratdığı Atlas adlı robotun isə üz cizgiləri insana bənzəmir, lakin insana məxsus atletik hərəkətləri ustalıqla təkrarlayır.

2021-ci ilin yeniliklərindən biri də Ksenobot adlı ilk bioloji robotun yaranmasıdır. Afrika qurbağasının hüceyrələrindən hazırlanmışdır. Yeriməyi, üzməyi, kiçik ▲ yükləri daşımağı bacarır. Qidalanmadan həftələrlə qruplar halında çalışa, yaralandıqda bərpa oluna bilir. Professor Coş Bonqard deyir: "Çoxları robotların metal və keramikadan hazırlandığını düşünür, ancaq bir robotun nədən düzəldildiyi deyil, müstəqil şəkildə hərəkət edib-etmədiyi önəmlidir". Onun başqa açıqlamasına görə, Ksenobotun çoxala bildiyi

kəşf edilmişdir. Bu istiqamətdə tədqiqatlar aparan alimlər Ksenobotun asanlıqla çoxalması üçün onun C şəklində dizayn edilməsini uyğun görürlər. Ksenobotun çoxalması təbiətdə olan başqa canlılardan fərqlidir. Olduğu mühitdə hərəkət edən zaman onlar hüceyrələri toplayır və nəticədə yeni Ksenobot yaradır. Molekulyar biologiya və süni intellektin **kombinasiyası** olan Ksenobot həm robot, həm də mikroorqanizmdir.

Ksenobotları keçən əsrin ortalarında meydana çıxmağa başlayan ilk kompüterlərə bənzətmək olar. Onlar da yüklənmiş kiçik yaddaş sayəsində insanların verdiyi əmrləri yerinə yetirə bilir. Ksenobotların hələ konkret praktiki tətbiqi yoxdur. Alimlər gələcəkdə onlardan ətraf mühiti və su hövzələrini mikroplastik tullantılardan təmizləmək, bir preparatı insanın bədənində daşımaq kimi müxtəlif işlərdə istifadə etmək niyyətindədirlər.

Robotlar dünyasına doğru sürətlə irəliləyirik. Onları həm insanlığın rifahı, həm də təhlükə mənbəyi kimi görənlər var. Lakin texnologiyanın inkişafı indiyə kimi insanlara ziyan vurmamışdır. Ümid edək ki, bundan sonra da texnologiyanın inkişafı insanlara zərər verməyəcək.

**A variantı 51 saylı test tapşırığı**
**B variantı 52 saylı test tapşırığı**
**C variantı 54 saylı test tapşırığı**
**D variantı 54 saylı test tapşırığı**

Mətnə əsasən cədvəldəki ***uyğunsuzluğu*** müəyyən edin.

| *Fikir* | *Doğrudur* | *Yanlışdır* |
|---|---|---|
| 1. İnsana ən çox bənzəyən robotların yaradılması XX əsrə təsadüf edir. | √ | |
| 2. Amekanın mexanizmi elə qurulmuşdur ki, ilk cəhddən insanlara müsbət reaksiya verir. | | √ |
| 3. Adı çəkilən robotlardan biri insana məxsus bütün xüsusiyyətlərə malikdir. | √ | |
| 4. Bəzi robotların bərpa olunma xüsusiyyəti var. | √ | |
| 5. Robotlar üçün vacib olan hansı materialdan hazırlandığı deyil, sərbəst hərəkət etməsi önəmlidir. | | √ |
| 6. Robotların insan həyatına təsiri haqqında müxtəlif fikirlər var. | √ | |

A) 2, 3, 4 B) 1, 3, 5 C) 1, 4, 5
D) 1, 5, 6 E) 2, 4, 6

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:*** *1. İnsana ən çox bənzəyən robotların yaradılması XX əsrə təsadüf edir* fikri yanlışdır, çünki mətndə 2021-ci il tarixi qeyd edilib, bu da XXI əsrdir.
*2. Amekanın mexanizmi elə qurulmuşdur ki, ilk cəhddən insanlara müsbət reaksiya verir* fikri yanlışdır, çünki ilk reaksiyası qorxu olur.
*3. Adı çəkilən robotlardan biri insana məxsus bütün xüsusiyyətlərə malikdir* fikri yanlışdır, çünki bu xüsusiyyət robotların heç birində yoxdur.
*4. Bəzi robotların bərpa olunma xüsusiyyəti var* fikri doğrudur, çünki Ksenobot robotu yaralandıqda bərpa oluna bilir.
*5. Robotlar üçün vacib olan hansı materialdan hazırlandığı deyil, sərbəst hərəkət etməsi önəmlidir* fikri doğrudur, bunu *mətndəki "Çoxları robotların metal və keramikadan hazırlandığını düşünür, ancaq bir robotun nədən düzəldildiyi deyil, müstəqil şəkildə hərəkət edib-etmədiyi önəmlidir"* fikri təsdiqləyir.
*6. Robotların insan həyatına təsiri haqqında müxtəlif fikirlər var* fikri doğrudur, çünki mətndə *"onları həm insanlığın rifahı, həm də təhlükə mənbəyi kimi görənlər var"* cümləsi qeyd olunub.
***Doğru cavab:*** 1, 3, 5

**A variantı 52 saylı test tapşırığı**
**B variantı 51 saylı test tapşırığı**
**C variantı 52 saylı test tapşırığı**
**D variantı 52 saylı test tapşırığı**

Mətnə əsasən hansı fikirləri əsaslandırmaq mümkündür?

1. Robotların hazırlanmasında insan maraqları nəzərə alınır.
2. Robotlar insanlıq üçün həmişə təhlükə törədir.
3. Bəzi robotlar özlərində müxtəlif elm sahələrini birləşdirir.
4. Bütün robotların yaradılması eyni şirkətin adı ilə bağlıdır.
5. Alimlər robotlardan insanlığa faydalı işlərdə istifadə etməyi düşünürlər.

A) 2, 3 B) 1, 3, 5 C) 1, 2, 5
D) 2, 4 E) 3, 4, 5

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:*** 1. *Robotların hazırlanmasında insan maraqları nəzərə alınır fikrini* mətndəki *"insanabənzər saxta varlıqlar böyük marağa səbəb olduğundan son illər belə robotların sayında ucalma müşahidə edilir*" cümləsi ilə;

3. *Bəzi robotlar özlərində müxtəlif elm sahələrini birləşdirir* fikrini mətndəki *"molekulyar biologiya və süni intellektin kombinasiyası olan Ksenobot həm robot, həm də mikroorqanizmdir"* cümləsi ilə;
5. *Alimlər robotlardan insanlığa faydalı işlərdə istifadə etməyi düşünürlər* fikrini mətndəki "*alimlər gələcəkdə onlardan ətraf mühiti və su hövzələrini mikroplastik tullantılardan təmizləmək niyyətindədirlər*" cümləsi ilə əsaslandırmaq mümkündür.
2-ci və 4-cü cümlələrdəki fikirləri mətndəki heç bir cümlə ilə əsaslandırmaq olmaz.
***Doğru cavab:*** 1, 3, 5

**A variantı 53 saylı test tapşırığı**
**B variantı 55 saylı test tapşırığı**
**C variantı 51 saylı test tapşırığı**
**D variantı 55 saylı test tapşırığı**

Mətnə əsasən Ksenobotların ilkin kompüterlərlə bənzər cəhətlərini müəyyən edin.
1. Yaddaşa malikdir.
2. Hərəkət edə bilir.
3. Metal və keramikadan hazırlanmışdır.
4. Müxtəlif sahələrdə istifadə olunur.
5. Verilən əmrləri yerinə yetirə bilir.

A) 2, 5 B) 2, 3 C) 1, 2, 4 D) 1, 5 E) 3, 4, 5

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:*** Mətndə qeyd olunmuş *"Ksenobotları keçən əsrin ortalarında meydana çıxmağa başlayan ilk kompüterlərə bənzətmək olar. Onlar yüklənmiş kiçik yaddaş sayəsində insanların verdiyi əmrləri yerinə yetirə bilir*" cümləsinə əsaslanaraq bu fikirlərin (*1. Yaddaşa malikdir. 4. Müxtəlif sahələrdə istifadə olunur*) doğru olduğu görünür. 2, 3 və 5- ci bəndlərdə qeyd olunan heç bir fikir isə Ksenobotların ilkin kompüterlərə bənzər cəhəti kimi qeyd olunmur.
***Doğru cavab:*** 1, 5

**A variantı 54 saylı test tapşırığı**
**B variantı 53 saylı test tapşırığı**
**C variantı 53 saylı test tapşırığı**
**D variantı 51 saylı test tapşırığı**

Mətnə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

| *Mətndə məlumat var* | *Mətndə məlumat* ***yoxdur*** |
|---|---|
| 1. Bəzi robotların yaranma səbəbləri eynidir.<br>2. Ksenobotun forması onun çoxalmasına təsir edir.<br>3. Mikroorqanizmlərin hamısı robotdur. | 4. Canlı hüceyrədən robot hazırlamaq mümkündür.<br>5. 2021-ci ildən sonra yaradılan robotların hamısı bioloji robotlardır.<br>6. Bəzi robotlardan əyləncə məqsədilə istifadə edilir. |

A) 1, 2, 5 B) 1, 3, 5, 6 C) 1, 3, 4
D) 2, 3, 4, 5 E) 2, 4, 6

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:*** Mətndə *1. Bəzi robotların yaranma səbəbləri eynidir* fikrinin olmasını*"insanabənzər saxta varlıqlar böyük marağa səbəb olduğundan son illər belə robotların sayında ucalma müşahidə edilir*" cümləsi ilə;
*2. Ksenobotun forması onun çoxalmasına təsir edir* fikrinin olmasını "*Bu istiqamətdə tədqiqatlar aparan alimlər Ksenobotun asanlıqla çoxalması üçün onun C şəklində dizayn edilməsini uyğun görürlər*" cümləsi ilə
*4. Canlı hüceyrədən robot hazırlamaq mümkündür* fikrini "*Ksenobot adlı ilk bioloji robotdur. Afrika qurbağasının hüceyrələrindən hazırlanmışdır"* cümlələri ilə;
*6. Bəzi robotlardan əyləncə məqsədilə istifadə* edilir *fikrini "Onları, əsasən, əyləncə məqsədi ilə hazırlayırlar"* cümləsi ilə təsdiq etmək mümkün olduğu halda,
*3. Mikroorqanizmlərin hamısı robotdur;*
*5. 2021-ci ildən sonra yaradılan robotların hamısı bioloji robotlardır;* fikirlərini mətndəki heç bir cümlə ilə təsdiq etmək mümkün deyil.
***Doğru cavab:*** 1, 2, 5

**A variantı 55 saylı test tapşırığı**
**B variantı 54 saylı test tapşırığı**
**C variantı 55 saylı test tapşırığı**
**D variantı 53 saylı test tapşırığı**

Mətndə tünd-qara hərflərlə verilmiş sözün kontekstdəki şərhi və mənasına əsasən uyğun fikirləri müəyyən edin.
**I** – Sözün şərhi
**II** – Sözün kontekstdəki mənada cümlədə işlədilməsi
A) I – müxtəlif və ya eynicinsli şeylərin bu və ya başqa qayda üzrə düzülüşü, birləşdirilməsi
II – Bu rənglərin kombinasiyası çox sevilir.

B) I – dizayn etmə, tərtibat
II – Mebellər kombinasiya ilə düzülmüşdü.
C) I – bir məqsədə çatmaq üçün kələkbazlıqla qurulan işlər
II – Bu kombinasiya sənə komandamızda yer eləmək üçündür.
D) I – toxunma, təmas etmə
II – Şahmat taxtasındakı kombinasiya uğurlu idi.
E) I – oyunda qələbə əldə etmək üçün tətbiq edilən cürbəcür üsullar
II – Futbolçuların kombinasiyası azarkeşlərin marağına səbəb oldu.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:*** Mətndə tünd-qara hərflərlə verilmiş sözün *(kombinasiya)* kontekstdəki şərhi və mənasına əsasən uyğun fikirləri müəyyən etmək tələb olunur. Bu söz mətndə *müxtəlif və ya eynicinsli şeylərin bu və ya başqa qayda üzrə düzülüşü, birləşdirilməsi* anlamındadır. *"Bu rənglərin kombinasiyası çox sevilir"* cümləsindəki *"kombinasiya"* sözü də eyni anlamda işlənmişdir.
*I – dizayn etmə, tərtibat şərhi yanlış, II – Mebellər kombinasiya ilə düzülmüşdü* fikri doğru;
*I – bir məqsədə çatmaq üçün kələkbazlıqla qurulan işlər* şərhi və *II – Bu kombinasiya sənə komandamızda yer eləmək üçündür* cümləsində işlənmə məqamı yanlış;
*I – toxunma, təmas etmə* şərhi də, *II – Şahmat taxtasındakı kombinasiya uğurlu idi* cümləsində də işlənmə məqamı yanlış;
*I – oyunda qələbə əldə etmək üçün tətbiq edilən cürbəcür üsullar* şərhi də, *II – Futbolçuların kombinasiyası azarkeşlərin marağına səbəb oldu* cümləsində də *kombinasiya* sözünün kontekstə görə mənası yanlışdır.
***Doğru cavab:*** I – müxtəlif və ya eynicinsli şeylərin bu və ya başqa qayda üzrə düzülüşü, birləşdirilməsi
II – Bu rənglərin kombinasiyası çox sevilir.

***56 – 60 saylı tapşırıqları "Cavab vərəqləri"ndə cavablandırın.***

**A variantı 56 saylı test tapşırığı**
**B variantı 56 saylı test tapşırığı**
**C variantı 56 saylı test tapşırığı**
**D variantı 56 saylı test tapşırığı**
Mətnə əsasən cədvəli tamamlayın.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:***

| ***Müddəa*** | ***Müddəanı təsdiq edən faktlar*** |
|---|---|
| | Ameka adlı robotun mimikaları eynən insandakı kimidir. |
| | |
| | |

.

***Ehtimal edilən doğru cavab nümunələri:***

| ***Müddəa*** | ***Müddəanı təsdiq edən faktlar*** |
|---|---|
| Robotlarda insana məxsus bəzi xüsusiyyətlər mövcuddur. | Ameka adlı robotun mimikaları eynən insandakı kimidir. |
| | Atlas adlı robot insana məxsus atletik hərəkətləri ustalıqla təkrarlayır. |
| | Ksenobot robotu yeriməyi, üzməyi bacarır və s. |

**A variantı 57 saylı test tapşırığı**
**B variantı 57 saylı test tapşırığı**
**C variantı 57 saylı test tapşırığı**
**D variantı 57 saylı test tapşırığı**
Mətndə əvvəlində işarə qoyulmuş sözlər əsasında cədvəli doldurun.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:***

| | *İfadənin mətndəki funksiyası (poetik, informativ və ya terminoloji)* | *İfadənin mətndəkindən fərqli funksiyada cümlədə işlədilməsi* |
|---|---|---|
| ● | | |
| ▲ | | |

***Ehtimal edilən doğru cavab nümunələri:***

| | *İfadənin mətndəki funksiyası (poetik, informativ və ya terminoloji)* | *İfadənin mətndəkindən fərqli funksiyada cümlədə işlədilməsi* |
|---|---|---|
| ● | İnformativ | O bu sözdən qaçırdı. |
| ▲ | İnformativ | Qoca bu yükün altından çıxmağın çətin olduğunu anlayırdı. |

**A variantı 58 saylı test tapşırığı**
**B variantı 58 saylı test tapşırığı**
**C variantı 58 saylı test tapşırığı**
**D variantı 58 saylı test tapşırığı**

Mətndə çərçivəyə alınmış cümlədə uyğun düzəlişlər (yalnız qüsurlu məqamlarda) etməklə cümləni yenidən yazın.

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:***
***Ehtimal edilən doğru cavab nümunələri:***
İnsanabənzər ***süni*** varlıqlar böyük marağa səbəb olduğundan son illər belə robotların sayında ***artım*** müşahidə edilir.

**A variantı 59 saylı test tapşırığı**
**B variantı 59 saylı test tapşırığı**
**C variantı 59 saylı test tapşırığı**
**D variantı 59 saylı test tapşırığı**

Mətnin əsas hissəsində bir-biri ilə ziddiyyət təşkil edən cümlələri müəyyən edərək yazın.

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:***
***Ehtimal edilən doğru cavab nümunələri:***
Haqqında bəhs etdiyimiz Ameka adlı yeganə bioloji robotun yaradıcıları da onu eyni səbəbdən hazırladıqlarını deyirlər. 2021-ci ilin yeniliklərindən biri də Ksenobot adlı ilk bioloji robotdur.

**A variantı 60 saylı test tapşırığı**
**B variantı 60 saylı test tapşırığı**
**C variantı 60 saylı test tapşırığı**
**D variantı 60 saylı test tapşırığı**

"*Robotlar gələcəkdə bəzi qlobal problemlərin həllində insanlara kömək edə bilər*" fikrini mətnlə əlaqələndirib yazın.

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:***
***Ehtimal edilən doğru cavab nümunələri:***
Mətndə qeyd olunmuşdur ki, *alimlər gələcəkdə onlardan ətraf mühiti və su hövzələrini mikroplastik tullantılardan təmizləmək niyyətindədirlər* .Deməli, verilmiş fikri (*robotlar gələcəkdə bəzi qlobal problemlərin həllində insanlara kömək edə bilər*) aşağıdakı cümlələrlə əlaqələndirmək olar:

1. Alimlər gələcəkdə onlardan istifadə edərək ətraf mühiti təmizləmək niyyətindədirlər.
2. Alimlər gələcəkdə robotlar vasitəsilə su hövzələrini mikroplastik tullantılardan təmizləmək niyyətindədirlər.

# Riyaziyyat

**A variantı 61 saylı test tapşırığı**
**B variantı 69 saylı test tapşırığı**
**C variantı 65 saylı test tapşırığı**
**D variantı 65 saylı test tapşırığı**

Bərabər hündürlüklü iki silindrin oturacaqlarının diametrləri $d_1=10$, $d_2=5$ olarsa, $V_2:V_1$ həcmlər nisbətini tapın.

A) 1:3 B) 1:2 C) 1:8 D) 1:4 E) 1:9

***Mövzu: Silindr, konus və kəsik konusun həcmi.***
***Sinif:11***
***İzah:*** Silindrin həcmi $V = S_{ot} \cdot H = \pi \cdot R^2 \cdot H$ olduğundan,

$$\frac{V_2}{V_1} = \frac{\pi \cdot R_2^2 \cdot H}{\pi \cdot R_1^2 \cdot H} = \left(\frac{R_2}{R_1}\right)^2 = \left(\frac{d_2}{d_1}\right)^2 = \left(\frac{5}{10}\right)^2 = \frac{1}{4} \text{ olar.}$$

***Doğru cavab:*** 1:4

**A variantı 62 saylı test tapşırığı**
**B variantı 65 saylı test tapşırığı**
**C variantı 69 saylı test tapşırığı**
**D variantı 71 saylı test tapşırığı**

İki oxşar çoxbucaqlıdan birincinin bir tərəfi 6, ikincinin uyğun tərəfi isə 10-dur. Birinci çoxbucaqlının perimetri 42 olarsa, ikinci çoxbucaqlının perimetrini tapın.

A) 48 B) 60 C) 52,2 D) 25,2 E) 70

***Mövzu:*** Oxşar fiqurların perimetrləri və sahələri nisbəti.
***Sinif: 8***
***İzah:*** Oxşar fiqurların uyğun tərəfləri və perimetrləri haqqında məlumdur ki,

$$\frac{a_1}{a_2} = \frac{P_1}{P_2} \Rightarrow \frac{6}{10} = \frac{42}{P_2} \Rightarrow P_2 = \frac{42 \cdot 5}{3} = 70$$

***Doğru cavab:*** 70

**A variantı 63 saylı test tapşırığı**
**B variantı 64 saylı test tapşırığı**
**C variantı 73 saylı test tapşırığı**
**D variantı 73 saylı test tapşırığı**

$x = -1$ olduqda $2x^3 + 3x^2 - 3x + 1$ ifadəsinin qiymətini hesablayın.

A) –4 B) –3 C) –5 D) 5 E) 1

***Mövzu:*** Tam cəbri ifadələr.
***Sinif: 6***
***İzah:*** $2 \cdot (-1)^3 + 3 \cdot (-1)^2 - 3 \cdot (-1) + 1 = 5$

***Doğru cavab: 5***

**A variantı 64 saylı test tapşırığı**
**B variantı 61 saylı test tapşırığı**
**C variantı 66 saylı test tapşırığı**
**D variantı 70 saylı test tapşırığı**

Katetləri 9 sm və 12 sm olan düzbucaqlı üçbucağın sahəsini tapın.

A) 30 $sm^2$ B) 90 $sm^2$ C) 54 $sm^2$
D) 60 $sm^2$ E) 50 $sm^2$

**Mövzu:** Düzbucaqlı üçbucağın sahəsi.
**Sinif:** 5
**İzah:** Düzbucaqlı üçbucağın sahəsi:

$$S=\frac{1}{2}\cdot a\cdot b=\frac{1}{2}\cdot 9\cdot 12=54(sm^2)$$

**Doğru cavab:** 54 $sm^2$

**A variantı 65 saylı test tapşırığı**
**B variantı 67 saylı test tapşırığı**
**C variantı 64 saylı test tapşırığı**
**D variantı 68 saylı test tapşırığı**

$\cos 7\alpha\cos\alpha+\sin 7\alpha\sin\alpha$ ifadəsini sadələşdirin.

A) $\sin(-6\alpha)$ B) $\sin 6\alpha$ C) $\cos 8\alpha$
D) $\cos 6\alpha$ E) $\sin 8\alpha$

**Mövzu:** İki bucağın cəmi və fərqinin triqonometrik funksiyaları.
**Sinif:10**
**İzah:** İki bucağın fərqinin kosinusuna əsasən $\cos(\alpha-\beta)=\cos\alpha\cos\beta+\sin\alpha\sin\beta$ . Bundan istifadə edərək $\cos 7\alpha\cos\alpha+\sin 7\alpha\sin\alpha=\cos(7\alpha-\alpha)=\cos 6\alpha$ olduğunu alarıq.

**Doğru cavab:** $\cos 6\alpha$

**A variantı 66 saylı test tapşırığı**
**B variantı 73 saylı test tapşırığı**
**C variantı 68 saylı test tapşırığı**
**D variantı 66 saylı test tapşırığı**

Surəti 15 olan düzgün ***olmayan*** kəsrlərdən təsadüfi seçilmiş birinin tam ədəd olması hadisəsinin ehtimalını tapın.

A) $\frac{4}{15}$ B) $\frac{8}{15}$ C) $\frac{11}{15}$ D) $\frac{7}{15}$ E) $\frac{2}{5}$

**Mövzu:** Hadisənin ehtimalı.
**Sinif: 6**
**İzah:**
Surəti 15 olan düzgün olmayan kəsrlərin sayı 15-dir. Bu kəsrlərdən məxrəci 1, 3, 5 və 15 olanlar tam ədəd olur, belə ki $p=\frac{4}{15}$.

**Doğru cavab:** $p=\frac{4}{15}$

**A variantı 67 saylı test tapşırığı**
**B variantı 70 saylı test tapşırığı**
**C variantı 72 saylı test tapşırığı**
**D variantı 72 saylı test tapşırığı**

$\log_3(x-3)\le 0$ bərabərsizliyini həll edin.

A) $[4;+\infty)$ B) $(3;+\infty)$ C) $(3;4]$
D) $(-\infty;0]$ E) $[3;4]$

**Mövzu:** Loqarifmik bərabərsizliklər.
**Sinif:10**
**İzah:** $\log_3(x-3)\le 0\Leftrightarrow\begin{cases}\log_3(x-3)\le\log_3 1\\ x-3>0\end{cases}\Leftrightarrow\begin{cases}(x-3)\le 1\\ x-3>0\end{cases}\Leftrightarrow\begin{cases}x\le 4\\ x>3\end{cases}$

**Doğru cavab:** $(3;4]$

**A variantı 68 saylı test tapşırığı**
**B variantı 72 saylı test tapşırığı**
**C variantı 67 saylı test tapşırığı**
**D variantı 62 saylı test tapşırığı**

Qrupdakı 20 tələbədən 15-i riyaziyyatdan, 16-sı fizikadan məqbul qiymət alıb. 3 tələbə bu fənlərin heç birindən məqbul qiymət almayıb. Tələbələrin neçə faizi hər iki fəndən məqbul qiymət alıb?

A) 70 B) 60 C) 55 D) 75 E) 50

**Mövzu:** Çoxluqların birləşməsi, kəsişməsi, fərqi və onların xassələri.
**Sinif: 6**
**İzah:** Məsələni həll etmək üçün $n(R\cup F)=n(R)+n(F)-n(R\cap F)$ düsturundan istifadə edə bilərik. Burada n(R) – riyaziyyat fənnindən məqbul qiymət alan tələbələrin sayı, uyğun olaraq n(F) fizikadan məqbul qiymət alan tələbələrin sayıdır.
$n(R\cup F)$ riyaziyyat və ya fizikadan məqbul alanların,
$n(R\cap F)$ həm riyaziyyat, həm də fizikadan məqbul alan tələbələrin sayını göstərir.

$$n(R\cup F)=20-3=17$$
$$n(R\cap F)=n(R)+n(F)-n(R\cup F)$$
$$n(R\cap F)=15+16-17=14$$
$$\frac{14}{20}\cdot 100\%=70\%$$

**Doğru cavab: 70**

**A variantı 69 saylı test tapşırığı**
**B variantı 62 saylı test tapşırığı**
**C variantı 70 saylı test tapşırığı**
**D variantı 67 saylı test tapşırığı**

$\frac{\sqrt{162}\cdot\sqrt{2}}{\sqrt{16}}$ ifadəsini sadələşdirin.

A) 9 B) 5,5 C) 4,5 D) 18 E) 3,6

**Mövzu:** Kvadrat köklər
**Sinif:8**
**İzah:** $\frac{\sqrt{162}\cdot\sqrt{2}}{\sqrt{16}}=\frac{\sqrt{81\cdot 2\cdot 2}}{4}=\frac{\sqrt{81}\cdot\sqrt{4}}{4}=\frac{9\cdot 2}{4}=4{,}5$

**Doğru cavab: 4,5**

**A variantı 70 saylı test tapşırığı**
**B variantı 63 saylı test tapşırığı**
**C variantı 63 saylı test tapşırığı**
**D variantı 61 saylı test tapşırığı**

$2-3x<-7-5x$ bərabərsizliyinin ən böyük tam həllini tapın.

A) 4 B) –5 C) 5 D) –4 E) –1

***Mövzu:*** Birdəyişənli xətti bərabərsizliklər
***Sinif:8***
***İzah:***
$2-3x<-7-5x \Leftrightarrow -3x+5x<-7-2 \Leftrightarrow 2x<-9 \Leftrightarrow x<-4{,}5$
***Doğru cavab: -5***

**A variantı 71 saylı test tapşırığı**
**B variantı 66 saylı test tapşırığı**
**C variantı 61 saylı test tapşırığı**
**D variantı 63 saylı test tapşırığı**

$\log_3 81$ ifadəsinin qiymətini hesablayın.

A) $\frac{1}{3}$  B) 4  C) 9  D) 3  E) $\frac{1}{4}$

***Mövzu:*** Ədədin loqarifmi və xassələri.
***Sinif:10***
***İzah:*** $\log_3 81=\log_3 3^4=4$
***Doğru cavab:4***

**A variantı 72 saylı test tapşırığı**
**B variantı 71 saylı test tapşırığı**
**C variantı 71 saylı test tapşırığı**
**D variantı 69 saylı test tapşırığı**

$|a|=-\frac{1}{5}+\frac{1}{4}$ tənliyini həll edin.

A) $\pm\frac{1}{9}$  B) $\frac{9}{20}$  C) $\frac{1}{10}$  D) $\pm\frac{1}{5}$  E) $\pm\frac{1}{20}$

***Sinif:7***
***İzah:***

$$|a|=-\frac{1}{5}+\frac{1}{4} \Leftrightarrow |a|=\frac{-4+5}{20} \Leftrightarrow |a|=\frac{1}{20} \Leftrightarrow a=\pm\frac{1}{20}$$

***Doğru cavab:*** $\pm\frac{1}{20}$

**A variantı 73 saylı test tapşırığı**
**B variantı 68 saylı test tapşırığı**
**C variantı 62 saylı test tapşırığı**
**D variantı 64 saylı test tapşırığı**

Üçbucaqda $a$=8, α=30°, γ=60° olarsa, $c$-ni tapın.




A) 8  B) $8\sqrt{2}$  C) $4\sqrt{3}$  D) $8\sqrt{3}$  E) 16

***Mövzu:*** Düzbucaqlı üçbucaq və onun elementləri.
***Sinif:8***
***İzah:*** $\alpha+\gamma=90^0$ olduğundan üçbucaq düzbucaqlı üçbucaqdır**,** 30°-li bucağın qarşısındakı katetin xassəsinə görə, üçbucağın hipotenuzu 16 vahiddir. Pifaqor teoreminə görə $c^2=16^2-8^2=256-64=192=64\cdot 3 \Rightarrow c=8\sqrt{3}$

***Doğru cavab:*** $8\sqrt{3}$

**A variantı 74 saylı test tapşırığı**
**B variantı 74 saylı test tapşırığı**
**C variantı 74 saylı test tapşırığı**
**D variantı 74 saylı test tapşırığı**

$\frac{{}_5P_5\cdot({}_6C_3+{}_6C_4)}{{}_7P_3}$ -ü hesablayın.

***Mövzu:*** Birləşmələrin növləri: permutasiyalar və kombinezonlar.
***Sinif: 10***
***İzah:*** ${}_nP_n=n!$ , ${}_nP_k=\frac{n!}{(n-k)!}$ , ${}_nC_k=\frac{n!}{(n-k)!\cdot k!}$

düsturlarına əsasən

$$\frac{{}_5P_5\cdot({}_6C_3+{}_6C_4)}{{}_7P_3}=\frac{5!\cdot(\frac{6!}{(6-3)!\cdot 3!}+\frac{6!}{(6-4)!4!}}{\frac{7!}{(7-3)!}}=\frac{5!\cdot(\frac{6!}{3!\cdot 3!}+\frac{6!}{2!\cdot 4!})}{\frac{7!}{4!}}=$$

$$=\frac{120\cdot(\frac{4\cdot 5\cdot 6}{1\cdot 2\cdot 3}+\frac{5\cdot 6}{1\cdot 2})}{7\cdot 6\cdot 5}=\frac{120\cdot(20+15)}{210}=20$$

***Doğru cavab: 20***

**A variantı 75 saylı test tapşırığı**
**B variantı 75 saylı test tapşırığı**
**C variantı 75 saylı test tapşırığı**
**D variantı 75 saylı test tapşırığı**

$\sin^2 15°+\sin^2 35°+\sin^2 55°+\sin^2 75°$ ifadəsinin qiymətini hesablayın.

***Mövzu: Çevirmə düsturları.***
***Sinif: 10***
***İzah:*** Burada $\sin(90°-\alpha)=\cos\alpha$ triqonometrik çevirməsindən və $\sin^2\alpha+\cos^2\alpha=1$ eyniliyindən istifadə edilir.

$\sin^2 15°+\sin^2 35°+\sin^2 55°+\sin^2 75°=$

$=\sin^2 15°+\sin^2 35°+\sin^2(90°-35^0)+\sin^2(90^0-15°)=$

$=\sin^2 15°+\sin^2 35°+\cos^2 35°+\cos^2 15°=$

$=(\sin^2 15°+\cos^2 15°)+(\sin^2 35°+\cos^2 35°)=1+1=2$

***Doğru cavab: 2***

**A variantı 76 saylı test tapşırığı**
**B variantı 76 saylı test tapşırığı**
**C variantı 76 saylı test tapşırığı**
**D variantı 76 saylı test tapşırığı**

Daxili bucaqlarının cəmi 2160° olan qabarıq çoxbucaqlının bir təpədən çəkilən diaqonallarının sayını tapın.

***Mövzu:*** Qabarıq çoxbucaqlının daxili və xarici bucaqlarının cəmi.
***Sinif:9***
***İzah:*** Qabarıq çoxbucaqlının daxili bucaqlarının cəmi $180^0\cdot(n-2)$ düsturu ilə hesablanır.

$$180^0 \cdot (n-2) = 2160^0$$
$$n-2 = 2160:180$$
$$n-2 = 12$$
$$n = 14$$
Qabarıq çoxbucaqlının bir təpədən çıxan diaqonallarının sayı $(n-3)$ bərabərdir.

$(n-3)$ =14-3=11

***Doğru cavab: 11***

**A variantı 77 saylı test tapşırığı**
**B variantı 77 saylı test tapşırığı**
**C variantı 77 saylı test tapşırığı**
**D variantı 78 saylı test tapşırığı**

Üçrəqəmli ədəd 4 rəqəmi ilə qurtarır. Bu rəqəmi pozduqda alınan ikirəqəmli ədəd verilən ədəddən 472 vahid kiçik olar. Bu üçrəqəmli ədədi tapın.

***Mövzu:*** Natural ədədlər üzərində əməllər.
***Sinif: 5***
***İzah:***
$$\overline{ab4} - \overline{ab} = 472$$
$$10 \cdot \overline{ab} + 4 - \overline{ab} = 472$$
$$9 \cdot \overline{ab} = 468$$
$$\overline{ab} = 52$$
$$\overline{ab4} = 524$$
***Doğru cavab: 524***

**A variantı 78 saylı test tapşırığı**
**B variantı 78 saylı test tapşırığı**
**C variantı 78 saylı test tapşırığı**
**D variantı 77 saylı test tapşırığı**

$\begin{cases} \dfrac{21}{x+4} + \dfrac{13}{y+1} = 2, \\ y - x = 3 \end{cases}$ tənliklər sistemindən $x+y$ cəmini tapın.

***Mövzu:*** Tənliklər sisteminin həlli.
***Sinif: 9***
***İzah:***
$$\begin{cases} \frac{21}{x+4} + \frac{13}{y+1} = 2 \\ y - x = 3 \end{cases} \rightarrow \begin{cases} \frac{21}{x+4} + \frac{13}{x+4} = 2 \\ y = x+3 \end{cases} \rightarrow \begin{cases} \frac{34}{x+4} = 2 \\ y = x+3 \end{cases} \rightarrow$$
$$\rightarrow \begin{cases} x+4 = 17 \\ y = x+3 \end{cases} \rightarrow \begin{cases} x = 13 \\ y = 16 \end{cases}$$
$$x + y = 29$$

***Doğru cavab: 29***

**A variantı 79 saylı test tapşırığı**
**B variantı 79 saylı test tapşırığı**
**C variantı 79 saylı test tapşırığı**
**D variantı 79 saylı test tapşırığı**

Cədvəldə duz və sudan ibarət iki məhlulun faiz tərkibi haqqında məlumat verilib. I məhluldan 150 q, II məhluldan isə 350 q götürüb qarışdırdıqda III məhlul alınır. Cədvələ əsasən $q - p$ fərqini tapın.

| | duz | su |
|---|---|---|
| I məhlul | 20% | |
| II məhlul | | 90% |
| III məhlul | $p$% | $q$% |

***Mövzu:*** İki ədədin nisbətinin faizlə ifadəsi.
***Sinif:6***
***İzah:***
Cədvəli şərtə uyğun dolduraq.

| | duz | su |
|---|---|---|
| I məhlul | 20% | 80% |
| II məhlul | 10% | 90% |
| III məhlul | $p$% | $q$% |

Birinci məhlulda 20% duz olduğundan 150 q bu məhlulun tərkibində 30 q duz, ikinci məhlulda 10% duz olduğundan 350 q məhlulda 35 q duz vardır. Qarışığın duzluluq faizini tapmaq üçün ümumi duzun, qarışığın kütləsinə nisbəti faizlə ifadə edilir. Buradan p və q tapılıb, fərqi yazılır.

$$0,2 \cdot 150 = 30(q)$$
$$0,1 \cdot 350 = 35(q)$$
$$\frac{30+35}{150+350} \cdot 100\% = \frac{65}{500} \cdot 100\% = 13\% = p\%$$
$$100\% - 13\% = 87\% = q\%$$
$$q - p = 87 - 13 = 74$$
***Doğru cavab: 74***

**A variantı 80 saylı test tapşırığı**
**B variantı 80 saylı test tapşırığı**
**C variantı 80 saylı test tapşırığı**
**D variantı 80 saylı test tapşırığı**

Hündürlüyü 2 olan düzbucaqlı paralelepipedin həcmi $2a^3 - 128$ çoxhədlisi ilə modelləşdirilib. Bu paralelepipedin oturacağının eni $a-4$ olarsa, tam səthinin sahəsini modelləşdirən çoxhədlini standart şəkildə yazın $(a > 4)$.

***Mövzu:*** Çoxhədlinin vuruqlara ayrılması.
***Sinif: 7***
***İzah:*** $V = m \cdot n \cdot k(m,n,k -$ paralelepipedin ölçüləridir)
$$V = 2a^3 - 128 = 2 \cdot \left(a^3 - 64\right) = 2 \cdot (a-4) \cdot (a^2 + 4a + 16)$$
$$\begin{cases} k = 2 \\ m = a - 4 \end{cases} \Rightarrow n = a^2 + 4a + 16$$

$$S_{tam} = 2 \cdot (mn + nk + mk) = 2 \cdot (a^3 - 64 + \left(a^2 + 4a + 16\right) \cdot 2 +$$
$$+ \left(a-4\right) \cdot 2) = 2 \cdot (a^3 - 64 + 2a^2 + 8a + 32 + 2a - 8) =$$
$$= 2a^3 + 4a^2 + 20a - 80$$
***Doğru cavab:*** $2a^3 + 4a^2 + 20a - 80$

**A variantı 81 saylı test tapşırığı**
**B variantı 81 saylı test tapşırığı**
**C variantı 81 saylı test tapşırığı**
**D variantı 81 saylı test tapşırığı**

Silsilə vuruğu $\frac{1}{3}$ olan həndəsi silsilədə doqquzuncu və altıncı hədlərin fərqi on üçüncü və onuncu hədlərin fərqindən neçə dəfə böyükdür?

***Mövzu:*** Ədədi və həndəsi silsilənin n - ci həddinin və ilk n həddinin cəmi düsturları.
***Sinif: 9***
***İzah:*** Həndəsi silsilədə silsilə vuruğu $q=\frac{1}{3}$, ümumi hədd $b_n=b_1\cdot q^{n-1}$-dir. $b_6, b_9, b_{10}, b_{13}$ hədləri üçün

$$\frac{b_9-b_6}{b_{13}-b_{10}}=\frac{b_6\cdot(q^3-1)}{b_{10}\cdot(q^3-1)}=\frac{b_6}{b_6\cdot q^4}=\frac{1}{q^4}=\frac{1}{\left(\frac{1}{3}\right)^4}=81$$

***Doğru cavab: 81***

**A variantı 82 saylı test tapşırığı**
**B variantı 82 saylı test tapşırığı**
**C variantı 82 saylı test tapşırığı**
**D variantı 82 saylı test tapşırığı**

*Oy* oxuna nəzərən simmetrik olan $y=f(x)$ və $y=g(x)$ kvadratik funksiyalarının qrafikləri verilmişdir. $g(10)=-8$ olarsa, *MNK* üçbucağının perimetrini tapın (*M* və *N* nöqtələri parabolalarının tapə nöqtələridir).




***Mövzu:*** $y=ax^2+bx+c, (a\neq 0)$ funksiyası və qrafiki.
***Sinif: 9***
***İzah:I üsul:***

$N(5;-3)\xleftrightarrow{OY}M(-5;-3)\rightarrow|MN|=10$

$g(0)=g(10)=-8$

(x=5 düz xətti y=g(x) funksiyasının simmetriya oxudur.)
K(0;-8)
T(0;-3), $|TK|=5$




$\Delta TNK=\Delta TMK$, Pifaqor teoreminə görə

$|MK|=|NK|=5\sqrt{2}$

$P_{\Delta MNK}=10(\sqrt{2}+1)$

***II üsul:***
N(5;-3) nöqtəsi g(x) kvadratik funksiyasının qrafikinin təpə nöqtəsi olduğunu nəzərə alsaq , bu funksiyanı $g(x)=a\cdot(x-5)^2-3$ şəkildə yaza bilərik.
Məlumdur ki,

$g(10)=-8\Rightarrow a\cdot(10-5)^2-3=-8$

$a\cdot 25-3=-8$

$a\cdot 25=-5$

$a=-\frac{1}{5}$

$g(x)=-\frac{1}{5}\cdot(x-5)^2-3$

$y=f(x)$ və $y=g(x)$ funksiyalarının qrafikləri ordinat oxuna nəzərən paraleldirsə, onda $f(x)=-\frac{1}{5}\cdot(x-5)^2-3$ düzturu ilə yazılır. Deməli, M(-5;-3) koordinatlı olur.

$N(5;-3)\xleftrightarrow{OY}M(-5;-3)\rightarrow$

$|MN|=\sqrt{(5-(-5))^2+(-3-(-3))^2}=\sqrt{100}=10$

K nöqtəsinin ordinat oxu üzərində olduğunu nəzərə alsaq

$f(0)=g(0)=-\frac{1}{5}\cdot(0-5)^2-3=-8$

K(0;-8) koordinatlarını tapmış oluruq.

$|MK|=\sqrt{(0-(-5))^2+(-8-(-3))^2}=\sqrt{50}=5\sqrt{2}$

$|NK|=\sqrt{(0-5)^2+(-8-(-3))^2}=\sqrt{50}=5\sqrt{2}$

$P_{\Delta MNK}=10(\sqrt{2}+1)$

***Doğru cavab:*** $10(\sqrt{2}+1)$

**A variantı 83 saylı test tapşırığı**
**B variantı 83 saylı test tapşırığı**
**C variantı 83 saylı test tapşırığı**
**D variantı 83 saylı test tapşırığı**

*CD* çevrəyə toxunan, *CA* isə kəsəndir. *DB* vətəri *ADC* bucağının tənböləni və $\angle ACD=36^\circ$ olarsa, $\angle CAD$-ni tapın.




***Mövzu:*** Düz xətlə çevrənin qarşılıqlı vəziyyəti: toxunan və kəsən.
***Sinif: 9***
***İzah:***

$$\angle CDB = \angle ADB = x$$

$$\begin{cases} \angle CDB = \frac{1}{2} \cup DB \\ \angle DAB = \frac{1}{2} \cup DB \end{cases} \Rightarrow \angle DAB = x$$

$$\Delta ACD \Rightarrow x + 2x + 36^0 = 180^0$$

$$3x = 144^0$$

$$x = 48^0$$

***Doğru cavab:*** $48^0$

**A variantı 84 saylı test tapşırığı**
**B variantı 84 saylı test tapşırığı**
**C variantı 84 saylı test tapşırığı**
**D variantı 84 saylı test tapşırığı**

Bütün tilləri bərabər olan dördbucaqlı piramidanın açılış şəkli verilmişdir. $AB = \left(12 + 12\sqrt{3}\right)$ sm olarsa, bu piramidanın həcmini tapın.




***Mövzu:*** Düzbucaqlı paralelepipedin , düz və mail prizmanın , piramidanın və kəsik piramidanın həcmi.

***Sinif: 10***
***İzah:***




***I üsul***

Tillərin uzunluğunu x qəbul edilsə, $APK$ bərabərtərəfli üçbucağında




$$h = \frac{x}{2}\sqrt{3}$$

$$AB = x\sqrt{3} + x$$

$$12(1+\sqrt{3}) = x(1+\sqrt{3})$$

$$x = 12(sm)$$

$$OF = \frac{1}{2} \cdot 12 = 6(sm)$$

$$AF = 6\sqrt{3}(sm)$$

$$h = AO = \sqrt{36 \cdot 3 - 36} = \sqrt{36 \cdot 2} = 6\sqrt{2}(sm)$$

$$V = \frac{1}{3} \cdot S_{ot} \cdot h = \frac{1}{3} \cdot 144 \cdot 6\sqrt{2} = 288\sqrt{2}(sm^3)$$

***II üsul:***




$$h = \frac{x}{2}\sqrt{3}$$

$$AB = x\sqrt{3} + x$$

$$12(1+\sqrt{3}) = x(1+\sqrt{3})$$

$$x = 12(sm)$$

$$OP = \frac{1}{2} \cdot MP = \frac{1}{2} \cdot \sqrt{12^2 + 12^2} = 6\sqrt{2}(sm)$$

$$AO = h = \sqrt{AP^2 - OP^2} = \sqrt{12^2 - 36 \cdot 2} = 6\sqrt{2}(sm)$$

$$V = \frac{1}{3} \cdot S_{ot} \cdot h = \frac{1}{3} \cdot 144 \cdot 6\sqrt{2} = 288\sqrt{2}(sm^3)$$

***Doğru cavab:*** $288\sqrt{2}(sm^3)$

**A variantı 85 saylı test tapşırığı**
**B variantı 85 saylı test tapşırığı**
**C variantı 85 saylı test tapşırığı**
**D variantı 85 saylı test tapşırığı**

Mərkəzləri $O\left(2;5\right)$ nöqtəsində olan iki çevrədən birinin diametri $AB$, digərinin diametri $CD$-dir. $A(m; n+1)$, $B(n; 2m)$ və $C(m; n)$ olarsa, $D$ nöqtəsinin koordinatlarını tapın.

***Mövzu:*** Parçanın orta nöqtəsinin koordinatları.
***Sinif: 9***
***İzah:*** Hər iki çevrənin mərkəzinin $O\left(2;5\right)$ nöqtəsində olduğu məlumdur. Deməli, bu nöqtə diametrlərin orta nöqtəsidir. Buna əsasən aşağıdakı tənliklər sistemi qurulur.

$$\begin{cases} \dfrac{m+n}{2}=2 \\ \dfrac{2m+n+1}{2}=5 \end{cases} \Rightarrow \begin{cases} m+n=4 \\ 2m+n=9 \end{cases} \Rightarrow \begin{cases} m=5 \\ n=-1 \end{cases}$$

$$\begin{cases} \dfrac{5+x}{2}=2 \\ \dfrac{-1+y}{2}=5 \end{cases} \Rightarrow \begin{cases} x=-1 \\ y=11 \end{cases}$$

***Doğru cavab:*** (-1;11)

**Rus dili**

# Русский язык

**Вариант A 31 тестовое задание**
**Вариант B 40 тестовое задание**
**Вариант C 32 тестовое задание**
**Вариант D 34 тестовое задание**

На противопоставление явлений указывается в предложении

A) Либо моя речь произвела сильное впечатление, либо они поняли нелепость ситуации.
B) Наши отцы искали тропинки, мы же строили дороги.
C) Время стояло самое благоприятное, то есть было слегка морозно и тихо.
D) То солнцем дерево печёт, то градом, то дождём его сечёт.
E) Старый ли дуб зашептался с сосной, или вдали заскрипела рябина.

**Тема:** Сложносочинённое предложение
**Класс**: 9, 11 класс
**Подстандарт** 9 кл. 4.1.1. Различает виды сложных предложений.
11 кл. 4.1.1. Целенаправленно использует предложения различных конструкций.
**Объяснение:** Одно явление в предложениях противопоставляется другому, если части сложносочинённого предложения соединены при помощи противительных союзов *а, но, же, да (=но), только (=но), зато, однако.*
**Верный ответ**: Наши отцы искали тропинки, мы же строили дороги.

**Вариант A 32 тестовое задание**
**Вариант B 31 тестовое задание**
**Вариант C 34 тестовое задание**
**Вариант D 39 тестовое задание**

Суффикс выделен ***неверно*** в слове

A) соломенный B) мысленный
C) ремесленный D) временный
E) обеденный

**Тема:** Состав слова
**Класс**: 6, 10 класс
**Подстандарт** 6 кл. 4.1.4. Следует правилам правописания самостоятельных частей речи.
10 кл. 4.1.2. Соблюдает лексико-семантические и грамматические нормы языка.
**Объяснение:** Имена прилагательные образуются от имён существительных с помощью суффиксов -*енн,*
*-ённ, -онн, -ан, -ян, -ин*. В словах *соломенный, мысленный, ремесленный, обеденный* верно выделен суффикс *–енн.* Только в слове *временный* два суффикса *–ен, -н (время – времена – временный)*
**Верный ответ**:

**Вариант A 33 тестовое задание**
**Вариант B 39 тестовое задание**
**Вариант C 37 тестовое задание**
**Вариант D 40 тестовое задание**

Выделенное слово в предложении “***Ночью*** *моросил дождь*.” является

A) частицей B) существительным
C) местоимением D) наречием
E) междометием

**Тема:** Наречие
**Класс**: 7, 10 класс
**Подстандарт** 7, 10 кл. 4.1.2. Соблюдает лексико-семантические и грамматические нормы языка.
**Объяснение:** В данном предложении слово *ночью* является наречием времени, так как к нему можно задать вопрос *когда?*, но нельзя задать падежный вопрос существительного *кем? чем?*.
**Верный ответ:** наречием

**Вариант A 34 тестовое задание**
**Вариант B 33 тестовое задание**
**Вариант C 36 тестовое задание**
**Вариант D 38 тестовое задание**

Укажите непостоянные признаки имени существительного.

A) число, падеж B) одушевлённость, число
C) склонение, одушевлённость
D) склонение, род E) род, падеж

**Тема:** Имя существительное
**Класс**: 6, 10 класс
**Подстандарт** 6, 10 кл. 4.1.2. Соблюдает лексико-семантические и грамматические нормы языка.
**Объяснение:** Имена существительные имеют следующие постоянные признаки: собственность и нарицательность, одушевлённость и неодушевлённость, род и склонение. К непостоянным относятся: число и падеж.
**Верный ответ:** число, падеж

**Вариант A 35 тестовое задание**
**Вариант B 38 тестовое задание**
**Вариант C 33 тестовое задание**
**Вариант D 37 тестовое задание**

Укажите верное утверждение.

A) Спряжение глаголов определяется только по окончанию.
B) Глаголы, которые управляют существительным в винительном падеже без предлога, называются непереходными.
C) Безличные глаголы изменяются по лицам и числам.
D) Условное наклонение глагола может образовываться и суффиксальным, и бессуффиксным способом.
E) Простая форма будущего времени образуется от глаголов совершенного вида.

**Тема:** Глагол
**Класс**: 6, 10 класс
